№ 269 ISSN 1027-3875 15 may 2009

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Əminə M.RZAQIZI
Fotomüxbir:
Könül ƏLİYEVA

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been published twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Amina M. RZAQIZI
Photoreporter:
Konul ALIYEVA

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN
Bu nömrədə



"ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN NÖVBƏTİ MƏŞĞƏLƏSİ 6



JURNALİSTİKA VƏ MEDİA İDARƏÇİLİYİ ÜZRƏ MAGİSTR PROQRAMINA QƏBUL 11



Tamilla ƏLİYEVA
RİYAZİYYATÇI FİLOSOF ŞAİR 12



İsmət ƏHMƏDOV
BOLQARISTANDA BOLONİYA SİSTEMİNƏ SƏRBƏST QOŞULAN İLK UNİVERSİTET 15



Camal MUSTAFAYEV
ŞEİR ŞƏRİN İNKARIDIR 20

USAQ DÜNYASI 34

İLHAM TUMAS 28
ƏXLAQSIZ VƏ QÜDRƏTLİ RASPUTİN HAQQINDA HƏR ŞEY...



BAKIDA MÜDHİŞ FACİƏ



Bakıda xalqımızı, xüsusən tələbə gənclərimizi dərindən sarsıdan müdhiş faciə baş vermişdir.

Aprelin 30-da saat 9.30 radələrində Gürcüstan vətəndaşı, 1980-ci il təvəllüdlü Qədirov Fərda Əsəd oğlu Azərbaycan Dövlət Neft Akademiyasının ikinci korpusuna daxil olaraq, inzibati binanın birinci mərtəbəsindən altıncı mərtəbəsinədək qarşısına çıxan hər bir kəsə «Makarov» tipli tapançadan atəş açmış, 12 nəfər müəllim və tələbəni qətlə yetirmiş, 13 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır. Yaralananlar arasında ADNA-nın tələbələri olan Sudan və Suriya vətəndaşları da vardır.

Polis tərəfindən zərərsizləşdiriləcəyini görən silahlı cinayətkar özünü öldürmüşdür. Onun üstündən "Makarov" tipli tapança, habelə hər biri 40 güllə tutan və içərisində 71 güllə olan xüsusi üsulla hazırlanmış 3 patrondaş, 2 tapança sandıqçası aşkar edilərək götürülmüşdür. Yaşadığı ünvanda aparılmış axtarış zamanı mənzilindən hər biri bir ədəd olmaqla 9 millimetr kalibrli patron, üzərində canavar təsviri olan sintetik materialdan hazırlanmış qara rəngli maska və istifadə olunmuş rezin tibb əlcəkləri aşkar edilmişdir.

Xüsusi qeyd edilməlidir ki, maddi sübut olan giliz və güllələrin ilkin tədqiqatı nəticəsində onların yalnız bir silahdan – "Makarov" tapançasından atıldığı müəyyən edilmiş, habelə hadisə yerində digər hər hansı silah və ya giliz aşkarlanmamışdır. Tapılmış giliz və güllələrin Fərda Qədirovun üzərindən götürülmüş "Makarov" tapançasından atıldığı, eləcə də onun cinayətdə istifadə etdiyi məhz bu silahla gicgah nahiyəsinə bir atəş açmaqla özünü öldürməsi aparılmış ekspert müayinələri ilə sübuta yetirilmişdir. Hadisənin şahidləri və zərərçəkənlər Fərda Qədirovun tanınmaya təqdim edilmiş fotoşəkli əsasında cinayətin məhz onun tərəfindən törədildiyini birmənalı olaraq göstərmişlər.

Aparılmış istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətin törədilməsində Fərda Qədirovun köməkçisi qismində iştirak etmiş həmkəndlisi Əliyev Nadir Şirxan oğlu müəyyən edilərək istintaqa cəlb olunmuşdur. Araşdırmalar göstərmişdir ki, Fərda Qədirov mobil telefonla Nadir Əliyevlə müntəzəm telefon əlaqəsi saxlamışdır. Sonuncu martın 15-də Bakı şəhərinə gələrək, Fərda Qədirovla mütəmadi görüşmüşdür. Nadir Əliyev yarana biləcək maneələri aradan qaldırmaq və planlaşdırılmış cinayətin həyata keçirilməsinə şərait yaratmaq məqsədilə aprelin 30-u saat 9.30 radələrində odlu silahla silahlanmış Fərda Qədirovla birlikdə Dövlət Neft Akademiyasının inzibati binasının qarşısına gələrək cinayətin törədilməsində iştirak etmişdir. Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmuş Nadir Əliyev barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Cinayətin başvermə səbəblərinin, onu törədənin əlaqələrinin müəyyən edilməsi və digər zəruri araşdırmaların aparılması məqsədilə peşəkar əməkdaşlardan ibarət istintaq-əməliyyat qrupu intensiv tədbirlər həyata keçirməkdədir. Cinayət işinin istintaqı Azərbaycan Respublikası Prezidentinin nəzarəti altındadır.

Xəzər Universitəsinin rəhbərliyi, professor-müəllim heyəti və tələbə kollektivi bu ağır faciədən dərindən kədərləndiklərini bildirərək, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, xəsarət alanlara tezliklə sağalmağı arzulayırlar.

XƏZƏR UNİVERSİTƏSİNDƏ YENİ TEMPUS LAYİHƏSİ

2009-2011-ci illərdə yerinə yetiriləcək bu layihənin koordinatoru Yunanıstanın Patras Universitetidir. Layihədə 23 ölkənin, o cümlədən 17 Avropa Birliyi və 6 əməkdaş ölkənin universitetləri iştirak edir. Bu layıhədən faydalanan əməkdaş ölkələr – Azərbaycan, Gürcüstan, Ermənistan, İsrail, Serbiya və Xorvatiyadır.

Yeni Tempus layihəsinin məqsədi biotibbi mühəndislik sahəsində tədris kurslarını yaratmaq, dərs



proqramlarını təkmilləşdirmək və biotibbi mühəndislik sahəsində laboratoriyaların fəaliyyətini gücləndirməkdir. Layihədə iştirak edən universitetlərin, xüsusilə də Yunanıstanın Patras Universitetinin biotibbi mühəndislik sahəsində böyük təcrübəsi var.

Aprel ayının 1-5-də Yunanıstanın Patras Universitetində layihə iştirakçılarının birgə görüşü olmuşdur. Xəzər Universitəsini bu görüşdə Kompüter elmləri departamentinin müdiri və bu layıhənin universitədə koordinatoru Dr.Leyla Muradxanlı təmsil etmişdir. Görüşdə layihə ətrafında müzakirələr keçirilmiş və iş qrafiki təsdiq edilmişdir.

Yeni Tempus layihəsi Xəzər Universitəsində biotibbi mühəndislik sahəsində yeni tədris proqramının yaradılmasma, bu sahədə yeni dərs kurslarının və yeni laboratoriyanın yaradılmasına yardım edəcəkdir.

Layihəyə uğurlar arzulayırıq!

Leyla MURADXANLI,
Kompüter elmləri departamentinin müdiri

Universitəyə məktub

Xəzər Universitəsinin rektoru, professor ***Hamlet İsaxanlıya***

Hörmətli professor!

Bu məktubu Sizə "Ovqat" verilişinə baxandan sonra yazıram. Sizi görkəmli riyaziyyatçı, pedaqoq, ictimai xadim kimi tanıyırdım. Mətbuatda dərc olunan dəyərli yazılarınızı oxumuş, radio və televiziyadan elmi söhbətlərinizi böyük maraqla dinləmişdim. Bu dəfə Sizi istedadlı şair-publisist kimi tanıdım.

Şeirlərinizi dinlədikcə, söhbətinizə qulaq asdıqca qəlbim fərəhlə dolurdu. Tanrı Sizə nə gözəl istedad bəxş edib! Sizi doğan ana – Pəri xanım dünyanın ən böyük xoşbəxtidir. Onun nurlu siması önündə baş əyir, əlindən öpürəm.

Verilişdə səslənən iki şeirinizi tələsik olsa da, yaza bildim. Elə həmən saat da əzbərlədim. Kitabınızda gedən bütün şeirlərinizi əzbərləmək və məclislərdə söyləmək arzusundayam. Şeirlər kitabınızı avtoqrafla alsam, Sizə minnətdar olaram!

Özüm haqqında bir neçə söz. Dövlət qulluğundan təqaüdə çıxmışam. Beş qız, beş oğul atasıyam. Nəvələrimin sayı 17-yə çatıb. İxtiyar yaşına yetmişəm, 70-i yola salmışam. Uşaqlarımın hamısı ali təhsil alıb. Ev-eşik sahiblərıdir.

Əlinizi ehtiramla sıxıram, elmdə, sənətdə, ailə həyatında uğurlar diləyirəm. Dərin hörmətlə,

Həmzə Ruhulla oğlu
VƏLİMƏMMƏDOV,
əməkdar jurnalist
19 aprel 2009-cu il

DAHA BİR QƏLƏBƏ



Aprelin 25-26-da Azərbaycan Karate Federasiyası ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Prezident kuboku" uğrunda ikinci beynəlxalq yarış keçirmişdir. Yarışda səkkiz ölkənin – Azərbaycan, Rusiya, Gürcüstan, Ukrayna, Türkiyə, İran, Rumıniya və Slovakiya idmançıları iştirak etmişlər. Xəzər Universitəsi İqtisadiyyat və menecment fakültəsinin birinci kurs tələbəsi Ramin Mehrəliyev 70 kq çəki dərəcəsində rəqiblərinin hamısını məğlub edərək, beynəlxalq yarışın qalibi olmuş, "Prezident kuboku" və qızıl medalla mükafatlandırılmışdır. Ramin bu qələbə ilə iyunun 16-da İtaliyada keçiriləcək Avropa çempionatına lisenziya qazanmışdır. Raminlə yanaşı Azərbaycanın daha iki idmançısı yarışın qalibi olmuşdur.

Ramin 2000-ci ildən idmanla məşğul olur. Karate - qo qaydasız döyüş üzrə Azərbaycan çempionudur.

Ramini qələbə münasibətilə təbrik edir, Avropa çempionatında və sonrakı yarışlarda ona böyük idman uğurları arzulayırıq.

"ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN NÖVBƏTİ MƏŞĞƏLƏSİ



Aprelin 28-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlının sədrliyi ilə "Elm və sənət məclisi"nin növbəti – otuzuncu məşğələsi oldu. ABŞ-ın Prinston Universitetinin professoru Michael A. Reynolds "Birinci Dünya müharibəsi dövründə Osmanlı İmperiyasının Qafqaz siyasəti" mövzusunda məruzə etdi. Məruzə ətrafında müzakirələrdə AMEA Şərqşünaslıq İnstitutunun əməkdaşları – tarix elmləri namizədləri Esmeralda Ağayeva, Esmiralda Həsənova və Bəhlul İbrahimli, AMEA Tarix İnstitutunun əməkdaşı, tarix elmləri doktoru Solmaz Rüstəmova-Tohidi, BDU-nun professorları, filologiya elmləri doktorları Süleyman Əliyarlı və Elmira Muradəliyeva, Azərbaycan Respublikasının Prezidenti yanında İdarəetmə Akademiyasının müəllimi, tarix elmləri namizədi Firdovsiyyə Əhmədova, Xəzər Universitəsinin müəllimi, tarix elmləri namizədi Zülfiyyə Vəliyeva və Azərbaycan Universitetinin müəllimi Asif Bayramov çıxış etdilər.

Jurnalist İsmayıl Umudlunun "Elm və sənət məclisi"nin bu məşğələsi haqqında "Ayna" qəzetində dərc olunmuş (2 may 2009-cu il) "Qafqazlı olmaq çox çətindir" sərlövhəli məqaləsini oxuculara təqdim edirik.



"QAFQAZLI OLMAQ ÇOX ÇƏTİN İŞDİR"

Bu, 1918-20-ci illərdə də belə idi, indi də belədir

Prinston Universiteti (Nyu-Cersi, ABŞ) Yaxın Şərq Araşdırmaları Mərkəzinin əməkdaşı, tarixçi alim Maykl Reynoldsun Xəzər Universitetində elmi auditoriya qarşısında "Birinci Dünya müharibəsi dövründə Osmanlı İmperiyasının Qafqaz siyasəti" mövzusunda elmi konfransı həm də bu baxımdan maraq doğururdu – sözügedən universitet ABŞ-ın ən qocaman və ən məşhur universitetlərindən biridir və burada elmi personalın seçimi son dərəcə ciddi bir şəkildə aparılır. Bu yerdə bircə faktı qeyd etmək yerinə düşər: Birinci cahan savaşından sonrakı dünyanın yeni xəritəsinin biçimlənməsində baş memarlardan biri olmuş prezident Vudro Vilson həmin ərəfədə Prinston Universitetinin rektoru olmuşdu, Albert Eynşteyn də bu universitetin müəllimlərindən biri idi.

Bizim qonağa gəldikdə, Maykl Reynolds türk və rus dillərini yaxşı bilir, Osmanlı, Rusiya, Avstriya, ABŞ, İngiltərə, Almaniya arxivlərində araşdırmalar aparmış, bu ölkələrin elmi auditoriyaları qarşısında bu sayaq konfranslar keçirmişdir. Mülahizələrindən bölgəmizin siyasi keçmişini, özəlliklə kiflənmiş "erməni məsələsi"ni də pis bilmədiyi görünürdü. Dünyanın nüfuzlu alimlərinin bu məsələlərə dair elmi fikirlərindən xəbərdar olduğu aşkar idi.

Rektor Hamlet İsaxanlı qonağı geniş elmi əlaqələri olan, aparıcı ölkələrin elmi çevrələrində qəbul edilən tarixçi alimlərdən biri kimi təqdim etdi. Adı və fəaliyyəti bizlərə tanış olan amerikalı alim bu baxımdan, təbii ki, maraq doğururdu və mənə görə, onu dinləmək üçün iki saat vaxt itirməyə dəyərdi. Konfransdan sonra bizim tarixçi alimlərdən biri "bilmədiyimiz bir şey demədi" dedisə də, bununla razılaşmaq mənim üçün çətin oldu. Belə ki, okeanın o tayından gəlmiş qonağın söylədiklərində şəxsən mənim – siyasi tarixlə pis tanış olmayan qəzetçi üçün yeni məqamlar az deyildi. Ən azı, Türkiyə, Rusiya, ABŞ və Avropanın bugünkü Qafqaz siyasətinin fəlsəfəsini anlayıb dərk etmək bir qədər də asanlaşmışdı. Tarixi paralellər düşündürücü idi. Baxmayaraq ki, mülahizələrində diplomatcasına ehtiyatlı idi.

1914-22-ci illərdə Qafqaz ətrafında böyük güclərin hər biri öz siyasətini yürütmüşdü və bunların pərdə arxasında dramatik gəlişmələr yaşanmışdı. Prinston Universitetinin əməkdaşı bunların bir çoxu üzərində dayandı. Məsələn, erməni çevrələrin belə bir tezisinə münasibət bildirdi: "Pantürkizm, panislamizm, panturanizm məfkurəsini mənimsəmiş türklər Qafqazı və Orta Asiyanı öz hakimiyyətləri altında birləşdirmək istəyirdilər və bu məqsədə aparan yolun üzərində ermənilər dayanmışdı, odur ki, onlar soyqırıma məruz qoyuldu". Maykl Reynolds bu tezisi əsassız sayır: türklər heç cür müharibəyə girmək istəmirdilər... Gənc türklərin liderləri real siyasətçilər idi, öz güclərini və rəqiblərin güclərini bilirdilər. Onlar Qafqazı özlərinə birləşdirmək deyil, Rusiya ilə arada bufer dövlət (və ya dövlətlər) kimi görmək istəyirdilər. Onların ermənilər qırmağa dair planları yox idi. Zaqafqaziyanın müstəqilliyinin elan edilməsi Osmanlının təsiri ilə olmuşdu.

Bundan başqa, İstanbul sarayı Azərbaycan ittihadçılarının Osmanlı ilə birgə dövlət, federasiya təkliflərinə razılıq verməmişdi.

Britaniya bölgədə erməni, kürd və aysor dövlətləri qurmaq fikrinə düşmüşdü. Rusiyaya gəldikdə, 1914-cü ildə onlarda belə bir fikir hakim idi ki, bir neçə ilə Osmanlı tarix səhnəsindən silinəcək, fəqət bu halda bir erməni dövləti formalaşa və Rusiyanın isti dənizlərə gedən yolunda maneə yarana bilər. Çar Rusiyası ermənilərdən ehtiyat edirdi, Daşnaksütyunun "dənizdən dənizə Ermənistan" niyyətindən xəbərdar idi, odur ki, əl altından bölgədəki kürd əşirətlərini ermənilərə qarşı silahlandırmağa, onların üstünə salışdırmağa başlamışdı. Osmanlı vətəndaşı olan ermənilər dövlətdən onları müdafiə etməyi tələb edirdi və hökumət onlara özlərini kürdlərdən müdafiə etmək üçün silah vermişdi. Bu vəziyyət müsəlman kürdləri daha da qəzəbləndirirdi.

1918-ci ildə ruslar bölgədən çəkilməklə onların Qafqaz siyasəti iflasa uğramış oldu. Osmanlı və sonra kamalistlər bufer dövlətlər ideyasının arxasında bərk dayanmışdılar. Britaniyanın kürd, aysor, erməni dövləti qurmaq planı iflasa uğradı. Almaniya isə bütün Qafqazı nəzarətində saxlamağa gücü yetmədiyini dərk edirdi. Almaniya yalnız Gürcüstanı himayə edə bilərdi. Odur ki, Gürcüstan liderlərini Zaqafqaziya Federasiyasından ayrılmağa, müstəqil olmağa inandıra bildi. Federasiya beləcə parçalanmış oldu. Fəqət Almaniya da Birinci Dünya müharibəsindən məğlub çıxdığı üçün onun da Qafqaz siyasəti iflasa uğramış oldu.

Maykl Reynolds Çar Rusiyasından fərqli olaraq bolşeviklərin Qafqaz siyasətini uğurlu sayır. Hər halda, onlar 1920-ci ildə yenidən Qafqaza qayıtmağı və sonrakı 70 ildə diyarı əllərində saxlamağı bacardılar.

1918-20-ci illərdə Qafqaz dövlətlərinin xarici siyasətlərinə gəldikdə, Maykl Reynolds onların liderlərini real siyasətçilər adlandırdı, amma belə bir ifadə də işlətdi: "Qafqazlı olmaq çox çətin işdir". Reynolds deyir ki, onlar öz vəziyyətlərini gözəl dərk edir, lakin böyük dövlətlərin siyasətlərinə çətinliklə təsir göstərə bilirdilər.

Günümüzdə həmin siyasi olaylar yeni, fəqət bənzər məzmunda bizim-indiki nəslin gözləri qarşısında cərəyan edir. Böyük dövlətlərdən hansının siyasəti üstün gələcək? Əsl sual budur və bu sualın cavabı bizlər üçün taleyüklü məqamlardan xəbər verir. Bizlər yenə də vəziyyətimizin mürəkkəbliyini dərk edir, fəqət böyük dövlətlərin Qafqaz siyasətlərinə, bölgəmizdə oynadıqları oyunlara çətinliklə mane ola bilirik. Qafqazlı olmaq, doğrudan da, çox çətin işdir.

KUAD
KARADENİZ ULUSLARARASI ARAŞTIRMALAR DERNEĞİ
ASSOCIATION FOR BLACKSEA INTERNATIONAL STUDIES

No: 09
Date: 07.05.2009

Letter of Thanks

His Highness Rector Prof. Dr. Hamlet Isahanliy,

Administrative Board of Association for Blacksea International Studies would like to use this opportunity to thank you most cordially for your University's being represented in our *"III. International Turkey-Georgia-Azerbaijan Friendship and Academic Cooperation Seminars"* with a group of students under the leadership of Dr. Kamran Behbudov, between the dates of 27-30 April 2009, in Trabzon, Turkey.

Association for Blacksea International Studies (KUAD) was established by a group of academicians and students from Karadeniz Technical University in Trabzon for emphasizing the political, economic and geostrategic role of Blacksea and Caucasus regions, encouraging and supporting academic studies on the target region, producing and implementing projects which aim to strength regional cooperation and dialog.

During our seminars we had chance to discuss the main problems of our region with the famous experts from Turkey and abroad. Especially with his interesting speeches on Azerbaijan's Caucasus and Energy Policy, Dr. Kamran Behbudov had a major contribution for our project. We had the honour and an immense pleasure sharing our ideas and feelings with the delegation from Khazar University.

The excellent feedbacks that we had during and after our project about the Azerbaijan and especially about your university encouraged us for furthering our cooperation with Khazar University. It will be an indefinable honour for us if your university may accept being the host organization for the IV. session of our *"Turkey-Georgia-Azerbaijan Friendship and Academic Cooperation Seminars"*.

Yours Respectfully,

Muhammet KULABER
Head of Administrative Board

Address : Konaklar Mah. Burla Hatun Cad. 32/10 Merkez/Tranzon/TURKEY
Tel : +90 554 637 73 96
Fax :
Web : kuad.org

TƏHSİL

"GƏNC KOMPYUTER İSTEDADLARI" I RESPUBLİKA MÜSABİQƏSİ

Mayın 4-də Təhsil Nazirliyində məktəblilər arasında keçirilmiş "Gənc kompyuter istedadları" I respublika müsabiqəsinin qaliblərinə mükafatlar təqdim olunmuşdur. Müsabiqə akademik Zərifə Əliyeva adına məktəbdə keçirilmişdir.

Təqdimetmə mərasimində təhsil naziri Misir Mərdanov ölkə Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"nın əhəmiyyətini vurğulamışdır.

Nazir, eyni zamanda, müsabiqənin uğurlu nəticələrindən danışmışdır.

Müsabiqə ilə bağlı müvafiq təşkilat komitəsinə AMEA-nın Kibernetika və İnformasiya Texnologiyaları institutlarının, "Delta Telekom" şirkətinin, münsiflər heyətinin tərkibinə isə "HP", "Microsoft Azerbaijan", "İntel", "Ultra" və digər şirkətlərin və "Multimedia" mərkəzinin nümayəndələri daxil edilmişlər.

Müsabiqə üçün 114 ərizə verilmiş, ayrı-ayrı nominasiyalar üzrə 70 layihə təqdim olunmuşdur. Layihələr müsabiqənin 1-ci turunda araşdırılmış və nominasiyalar üzrə 42 layihə 2-ci yekun turuna buraxılmışdır.

"Təqdimat", "Vebsayt", "Kompyuter proqramları", "Animasiya" nominasiyaları üzrə qaliblər müəyyənləşdirilmişdir. Müsabiqədə paytaxtdakı akademik Zərifə Əliyeva adına məktəbin, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin, "Zəngi" liseyinin, 134, 286, 313, 56 mömrəli məktəblərin, Sumqayıt şəhərindəki 21, 23 və 25 nömrəli təhsil müəssisələrinin, Zaqatala rayonundakı 3 nömrəli məktəbin şagirdləri daha yüksək nəticələr əldə etmişlər.

Qaliblərin işləri nazirliyin təhsil portalında yerləşdiriləcəkdir. Digər çıxış edənlər də qalibləri təbrik etmişlər.

Sonra I, II və III yerləri tutanlara sertifikatlar və qiymətli hədiyyələr, final mərhələsinin bütün iştirakçılarına sertifikatlar verilmişdir.

"MƏN FRANSIZCA DANIŞIRAM"

Mayın 6-da Fransanın "Total" neft şirkətinin ölkəmizdəki nümayəndəliyinin maliyyə yardımı ilə "Kainat" Gənclər Mərkəzinin Bakıdakı Fransa Mədəniyyət Mərkəzi ilə birgə təşkil etdiyi Azərbaycan məktəbliləri arasında "Mən fransızca danışıram" müsabiqəsinin final mərhələsi keçirilmişdir.

"Kainat" Gənclər Mərkəzinin sədri Rahib Rəsulzadə, Fransanın ölkəmizdəki səfirliyinin mədəniyyət məsələləri üzrə attaşesi Lyuk Obri və səfirliyin təhsil məsələləri üzrə əlaqələndiricisi Səadət Çoşqun, "Total" neft şirkətinin korporativ layihələr üzrə Azərbaycan nümayəndəliyinin əlaqələndiricisi Rasim Axundov və digər çıxış edənlər bildirmişlər ki, bu gün xarici dilləri öyrənmək çox vacibdir. Ona görə ki, savadlı gənclər gələcəkdə Azərbaycanı dünyanın bütün ölkələrində təbliğ edə bilsinlər. Hər il keçirilən bu ənənəvi müsabiqə fransız dilini öyrənən məktəbliləri məhz buna həvəsləndirir.

İki yaş kateqoriyası üzrə - aşağı və yuxarı sinif şagirdləri arasında keçirilmiş müsabiqənin final mərhələsində Bakı məktəblərinin seçmə mərhələsindən keçmiş 60-a yaxın şagirdi iştirak etmişdir. Fransanın ölkəmizdəki səfirliyinin əməkdaşlarının da iştirak etdiyi müsabiqədə paytaxtımızın orta məktəblərinin fransız dili müəllimləri şagirdlərin yazı vərdişlərini yoxlamış, onlarla söhbət aparmışlar.

Tədbirin sonunda "Mən fransızca danışıram" müsabiqəsinin final mərhələsinin bütün iştirakçılarına xatirə diplomları, xüsusi fərqlənənlərə isə qiymətli hədiyyələr verilmişdir.

Bu tədbir "Mir" Dövlətlərarası teleradio verilişləri şirkəti tərəfindən geniş işıqlandırılmışdır.

AKADEMİKİN TƏŞƏBBÜSÜ İLƏ YARADILMIŞ LİSEYİN 10 YAŞI



Mayın 13-də görkəmli alim, akademik Azad Mirzəcanzadənin 80 illiyinə və onun təşəbbüsü ilə yaradılmış147 nömrəli Texniki-Humanitar Liseyinin 10 illiyinə həsr olunmuş tədbir keçirilmişdir.

Çıxış edənlər akademik A.Mirzəcanzadənin mənalı ömür yolundan, elmə verdiyi dəyərli töhfələrdən danışmış, alimin təşəbbüsü ilə yaradılmış liseyin fəaliyyəti barədə məlumat vermişlər.

Bildirilmişdir ki, texniki və humanitar sahələr üzrə ixtisaslaşmış liseyin şagirdləri ölkədaxili və beynəlxalq fənn olimpiadalarında mükafatlar qazanmışlar. Bu təhsil müəssisəsinin məzunları ötən tədris illərində ali məktəblərə keçirilmiş qəbul imtahanlarında yüksək nəticələr göstərmişlər.

Liseyin fərqlənən müəllimlərinə fəxri fərmanlar və döş nişanları verilmişdir.

Universitəyə məktub

XƏZƏR UNİVERSİTƏSİNİN DAİMİ QAYĞISI VƏ SEVGİSİ İLƏ

Xəzər sularıtək dalğalanan, coşub-daşan geniş şöhrətli "Xəzər"! Bəli, söhbət, öz qayğı və mərhəməti, xeyirxahlığı və məhəbbəti ilə kövrək könüllərə sevinc bəxş edən Xəzər Universitəsindən gedir.

15 ildən artıqdır ki, universitənin müəllim və tələbələri Xətai rayonu 3 saylı uşaq evi ilə sıx əlaqə saxlayırlar. Hörmətli Hamlet İsaxanlının rəhbərlik etdiyi bu böyük kollektiv ana - ata himayəsindən məhrum olmuş məsum körpələrin, ürəyi ümidlə dolu gənclərin bütün problemlərinin aradan qaldırılmasına daim yardım göstərir.

Xalqımızın əziz bayramı Novruzda, Qurban bayramında, Yeni ildə, Beynəlxalq uşaqları müdafiə günüdə, uşaqların ad günlərində körpə fidanların ən əziz qonağı olur "Xəzər". Hər bir uşağın qəlbindən, ürəyindən keçən hədiyyələrlə görüşə gəlir "Xəzər". Uşaq evində keçirilən hər bir toy məclisinin yaraşığı olmuşdur Xəzər! Yeni ailə quran gənclərə arxa, dayaq olmuşdur "Xəzər"! Təməli yenicə qoyulan ailələr üçün məişət avadanlığından tutmuş mebellərin alınmasınadək hər işdə yaxından iştirak etmişdir "Xəzər". Ata-ana nəvazişindən məhrum olsalar da, "Xəzər"in qayğısından isinmişlər bu gənclər.

Unversitetin qabaqcıl müəllimlərindən olan Nanə xanım Kələntərlinin təşəbbüsü və rəhbərliyi ilə İqtisadiyyat və menecment fakültəsinin tələbələri tez-tez uşaqların görüşünə gəlir, onların istək və arzularını öyrənir, ehtiyaclarını ödəməyə çalışırlar.

Universitənin rəhbərliyi uşaqların təhsilinə də xüsusi diqqət yetirir, öz səxavətini onlardan əsirgəmir. Uşaq evimizin məzunları test imtahanlarından keçərək, Xəzər Universitəsinə qəbul olunur, ödənişsiz təhsil alırlar. Bu tələbələr arasında magistr dərəcəsini alanlar da az deyil. Hətta öz bilik və bacarığı ilə fərqlənən bir gənc hazırda universitədə müəllim işləyir.

Uşaq evi Xəzər Universitəsinin – bu böyük ailənin bir parçasıdır. Uşaq evi də "Xəzər"dən gələnləri doğmalarıtək qəbul edir. Onlar da öz sevgi və qayğılarını "Xəzər"dən əsirgəmirlər. Universitənin mədəni-ictimai tədbirlər və yubileylərində yaxından iştirak edirlər, Hamlet İsaxanlının sözlərinə yazılmış mahnıları sevə-sevə ifa edir, sanki bununla öz təşəkkürlərini bildirirlər.

Bu mehriban cütlük – Xəzər Universitəsi və 3 saylı uşaq evi uşaqlarda özünə inam yaradır, onlarda dostluq, yoldaşlıq, insanpərvərlik, xeyirxahlıq, mərhəmət kimi zəruri hisslər formalaşdırır, uşaqların özlərini ifadə etmək bacarığını və yaradıcı təfəkkürünü inkişaf etdirir. Bu cütlüyün dostluğu Xəzərtək yenilməz, bitməz, qocalmazdır.

Zöhrə HÜSEYNOVA,
3 saylı uşaq evinin müdiri

JURNALİSTİKA VƏ MEDİA İDARƏÇİLİYİ ÜZRƏ MAGİSTR PROQRAMINA QƏBUL



Gürcüstanın "İctimai İşlər İnstitutu" Xəzər Universitəsi və ABŞ-ın Bakıdakı səfirliyi ilə birgə Qafqaz Jurnalistika və Media İdarəçiliyi Məktəbinin jurnalistika və media idarəçiliyi üzrə magistr proqramına tələbə qəbulu aparır. Azərbaycandan seçiləcək beş nəfər tələbə 2009/2011-ci tədris illərində Bakıda Xəzər Universitəsində və Tbilisi şəhərində təhsil alacaqlar. Jurnalistika üzrə dərslər ABŞ, Avropa Birliyi, Gürcüstan və Azərbaycandan olan müəllimlər tərəfindən aparılacaq. Adı çəkilən məktəbin müəllim heyəti və tədris planı mərkəzi Vaşinqton şəhərində yerləşən Jurnalistlər üçün Beynəlxalq Mərkəz və Luiziana Universitetinin Manşip məktəbi ilə birgə hazırlanıb. Müsahibimiz Qafqaz Jurnalistika və Media İdarəçiliyi Məktəbinin Azərbaycan üzrə proqram əlaqələndiricisi İlqar Xudiyevdir.

– Qafqaz Jurnalistika və Media İdarəçilyi Məktəbi haqda bir qədər məlumat versəydiniz, oxucularımız üçün maraqlı olardı.

– Qafqaz Jurnalistika və Media İdarəçiliyi məktəbi 2001-ci ildə jurnalistika və media idarəçilyi sahəsi üzrə tədris və təlim proqramları vasitəsilə Qafqazda müstəqil medianın inkişafını dəstəkləmək məqsədilə yaradılıb. Məktəbin fəlsəfəsinə əsasən dəqiq və qərəzsiz xəbərçilik ənənəsində təlim görmüş jurnalistlər işlədikləri yerdə jurnalistikanın səviyyəsini qaldırır, dəqiq məlumat verməklə və peşə standartlarını yüksək tutmaqla cəmiyyətə xidmət göstərirlər.

Məktəbin açıldığı vaxtdan bəri 107 məzun ingilis dilli regional proqramı bitirərək, jurnalistika və media idarəçilyi üzrə magistr dərəcəsinə yiyələnib. Məktəbin Azərbaycandan olan məzunları yerli media sahəsində məsul vəzifələrdə çalışmaqdadırlar. İşlədikləri televiziya, radio və qəzetlərdə dəqiqlik, qərəzsizlik, müstəqillik kimi prinsiplərə söykənən tanınmış jurnalistlərdir. Məzunlarımızın ən çox cəmləşdiyi media qurumları ANS TV, Space TV, ANS Press, CBN, Azadlıq/Azad Avropa radiosunun rus və azərbaycan xidmətləri, BBC Monitorinq və bir sıra qəzet, jurnal və informasiya agentlikləridir.

– Azərbaycanda jurnalistlər üçün çoxlu sayda seminar və təlimlər keçirilir. Sizin təmsil etdiyiniz məktəbin həyata keçirdiyi layihə onlardan nə ilə fərqlənir?

– Qeyd edim ki, bir qayda olaraq seminar və təlimlər ən yaxşı halda bir neçə ay çəkir. Bizim magistratura proqramı isə tam iki ili əhatə edir və məzunlar təhsillərini başa vurduqdan sonra magistr diplomuna sahib olurlar. Seçilmiş tələbələr ilk semestr dərslərini Bakıda, Xəzər Universitəsində keçirlər, daha sonra onlar bir il ərzində təhsillərini Gürcüstanın paytaxtı Tbilisi şəhərində davam etdirirlər. Sonda isə onlara öz diplom işlərini /layihələrini hazırlamaq üçün tam sərbəst qrafik təqdim olunur. Məhz bu diplom işini/layihəsini müdafiə etdikdən sonra onlar proqramı bitirirlər.

Hər il Azərbaycan da daxil olmaqla region ölkələrində peşəkar jurnalistlər və digər ixtisaslar üzrə ali təhsili olanlar arasından 25 tələbə (Azərbaycandan 5 nəfər) bu proqram üzrə təhsil almaq üçün seçilir. Tədrisin ingilis dilində aparıldığı məktəbdə çap jurnalistikası, qəzet və jurnalların dizaynı, veb səhifələrinin, xəbərlər bülletenlərinin hazırlanması, televiziya, radio jurnalistikası, jurnalistikanın prinsipləri, media idarəçiliyi və sair fənlər üzrə ABŞ və Qərbi Avropa ölkələrindən olan müəllimlər tədrisin yüksək səviyyədə aparılmasına zəmin yaradırlar. Məktəbin texniki təchizatı yüksək səviyyədə qurulub.

Həm çap, həm də tele-radio yayımı mediası nümayəndələri üçün nəzərdə tutulan tədris planı praktik yanaşma və toplanmış təcrübə prinsipləri üzərində qurulub və faktlara əsaslanan peşəkar xəbər çatdirilmasını nəzərdə tutur. Burada, həmçinin, idarəçilik üsullarına və iqtisadiyyat və hüquq fənlərinin tədrisinə də diqqət ayrılır. Tələbələrin kompüter, radio və video avadanlıqlarından, internet və zəngin kitabxanadan istifadə etmək imkanları var. Proqram çərçivəsində tələbələr "Brosse Street Journal" adlanan qəzet və jurnalın həm çap, həm də internet versiyasını buraxır və "GİPA FM" radiosu vasitəsilə xəbər proqramlarını hazırlayaraq yayımlayırlar.

– Proqramda iştirak üçün hansı sənədlər lazımdır?

Qeyd edim ki, namizədlərin jurnalistika sahəsində marağının olması vacib şərtdir. Bizim son məqsəd məzunların Azərbaycana qayıtdıqda məhz jurnalistika sahəsində çalışmalarıdır. Müraciət üçün lazım olan sənədlərə gəldikdə isə, bunun üçün ingilis dilində tərcümeyi-hal (CV), ali təhsil haqda diplomun sürəti, iki ədəd fotoşəkil, doldurulmuş ərizə forması, 250 sözdən ibarət inşa (essay) – orada namizəd bizim proqrama nə üçün müraciət etdiyini əsaslandırmalıdır və onu tanıyan iki şəxsin adından məktub (recommendation letter) təqdim etmək şərtdir. Əlavə məlumat və sənədlərin qəbulu üçün namizədlər mənə müraciət edə bilərlər (e-mail: ixudiyev@yahoo.com ; Mobil: 050 319 66 80).

"Xəzər Xəbər"

RİYAZİYYATÇI FİLOSOF ŞAİR



XX əsrin ən böyük riyaziyyatçılarından biri demişdi ki, təxəyyülü riyaziyyat üçün kifayət etməyənlər ədəbiyyatçı olurlar. Zarafatla deyilmiş bu sözlərdə müəyyən həqiqət də var. Yaradıcı təxəyyül olmasa, elmin heç bir sahəsində uğur qazanmaq mümkün deyil, xüsusilə də yalnız rəqəmlər və riyazi əməllər vasitəsilə gözlə görünməsi mümkün olmayan məsafələrə və dünyalara nüfuz edib, onların sirrini açmaq işində. Lakin riyaziyyatla ədəbiyyat arasında tam həddi qoymaq da çətindir. Hər iki sahədə yaradıcı təxəyyül vacibdir. Təsadüfi deyil ki, dünya elminin gənc dövrlərində, ələlxüsus Şərq aləmində dəqiq elmlərlə humanitar elmlər və ya bədii yaradıcılıq arasında indiki dövrdə olduğu kimi kəskin həddi olmayıb. Tarixə nəzər salsaq, İbn Sina və Ömər Xəyyam kimi dühaların maraq dairəsindən, dövrümüzə qədər gəlib çatmış əsərlərindən çıxış edərək onların yerini müəyyənləşdirməkdə çətinliklə üzləşirik. İbn Sina hakimdir, riyaziyyatçıdır, yoxsa əsərləri bu gün də bədii dəyərini saxlayan görkəmli filosof-şairdir? Ömər Xəyyam dövrünün ən böyük astronomu, bütün dövrlərin ən görkəmli riyaziyyatçılarından olsa da, bizim dövrümüzdə daha çox şair kimi, rübai ustası kimi tanınır.

«Alisa möcüzələr ölkəsində» nağılı oxuculara yaxşı tanışdır. Amma nağılsevərlərin çoxu bilmir ki, onun müəllifi Luis Kerroll riyaziyyatçı olmuşdur.

Beləliklə, riyaziyyatçıların ədəbiyyata, bədii yaradıcılığa müraciəti bir o qədər də nadir hadisə deyil və bu kimi müraciətlər hazırda da davam etməkdədir. Dövrümüzdə bədii yaradıcılığa müraciət edən riyaziyyatçılardan biri Hamlet İsaxanlıdır. Bəs, gənc yaşlarından özünü dəqiq elmlər sahəsində təsdiq etmiş alimin poeziyaya müraciəti nədən irəli gəlir?

Bu suala cavab vermək üçün, yəqin ki, birinci növbədə onun şeirlərinə müraciət etməliyik:

Müdriklər ortaya hey sual atdı:
Varmı əbədiyyət?
Varsa nədir o? Və nədir həyat?
Kim-kimi yaratdı?

Bu misralar Hamlet İsaxanlının «Bu da bir həyatdı» (Bakı, Xəzər Universitəsi nəşriyyatı, 2004) kitabının əvvəllərindən götürülmüşdür və müəyyən mənada yuxarıda səsləndirdiyimiz suala şeirdə qoyulmuş suallarla cavab verir. "Nədir həyat?", "Kim-kimi yaratdı?", "Varmı əbədiyyət?"... Bir-birindən ağır, cavabı müşkül suallar... Bu sualların cavabını heç bir riyazi hesablamalarla vermək mümkün olmadığından müəllif sözə müraciət edir, onlara cavab verməyə cəhd edir. Və ayrı-ayrı şeirlərində qoyulan bu sualların cavabını səsləndirməyə və bunu da bir riyaziyyatçı kimi tam bitkin həyata keçirməyə çalışır:

Zaman-zaman öz-özümlə söhbət etdim:
– Nə vaxt duydum, necə duydum həyatı mən?
– Öncə, əlbət, uşaqlıqda, öz nənəmdən –
O mələkdi, ülfəti qəlbimə doldu,
Onun sığındığı tanrı
Mənim də allahım oldu,
Mən onun, nənəmin allahını sevdim.
... Öncə nənəm mənə bir dünya yaratdı,
Sonra gördüm həyat qəribə həyatdı.
Nədir həyat? Yaşadıqca duydum az-az,
Anladım ki, onu tam anlamaq olmaz.

("Kim-kimi yaratdı")

İnsan dünyaya gəlir, onu dərk etməyə çalışır, hər gün onun üçün dünyanın yeni rəngləri, yeni

çalarları açılır, o əvvəlcə nənə, baba nağılları ilə əfsanəvi bir aləmə yol alır, bundan sonra tədricən gerçəkliyin sərt üzü ilə üzləşir və yer həyatının sonuna qədər həyatın nə olduğunu öyrənməyə çalışır. Amma yenə də buna nail ola bilmir. Riyaziyyatda bəzi məsələlərin cavabı sonsuzluq olduğu kimi, həyatın dərki də bitib-tükənməyən, sonsuz bir prosesdir... İstər əlli yaşa, istər yüz yaşa... Nə doymaq olar bu həyatdan, nə də ki sirrini açmaq...Nədir həyat?

Bir günəş doğuşu
Qaranlığın pərdəsini söküb atdı,
Aləmə dağılan odlu telləri
Alova bürüdü hər yeri,
Hərarəti qəlbimə də gəlib çatdı –
Bu bir həyatdı.

("Bu da bir həyatdı")

Maraqlı fikirdir və çoxmənalı dərk olunandır. Günəş – həyatın mənbəyidir, günəş olmasa, həyat da olmaz. Digər tərəfdən, günəş yalnız enerji mənbəyi deyil, gündüzün gəlməsinin səbəbkarıdır, yəni buludlar arxasında gizlənsə belə günəşin gəlişi öz sözünü deyir. Məhz bu zaman şər qüvvələr çəkilir, xeyirin hökmranlığı başlayır: *«bir çiçək qoxusu»*, *«sevgi...duyğusu»*, *«məhəbbət yuxusu»* da günəşlə başlanır, gündüzdən başlanğıc alır... Nədir həyat? – sualı az da olsa cavablanır. Az da olsa! Çünki bu sualı tam cavablandırmaq, çox güman, heç mümkün də deyil. Bütün dövrlərdə alimlər də, şairlər də bu sualın cavabını verməyə çalışıblar, lakin sualın cavabı «Fermi teoremi» kimi hələ də açıqdır. Həmin sualı cavablandırmağa, gördüyümüz kimi, alim-filosof-şair Hamlet İsaxanlı da cəhd edir və öz cavabını verir.

Lakin günəşin özü də əbədi deyil. Bunu şairdən çox alim, riyaziyyatçı Hamlet İsaxanlı deyir. Lakin həm şair, həm də alim təxəyyülü həyatın bu və ya digər şəkildə əbədiliyinə inanır. Konkret bir fərdin həyatının deyil, bütövlükdə yaranmışların bir şəkildən başqa şəklə düşərək təkamüldə olması və ali bir varlıq kimi düşünən beyinə və sevən qəlbə malik olması şəklində:

Günəşin də öz ömrü var
Bir gün o da bitəcək.
Başqa bir günəş gələcək
Hər dərdə o yetəcək.
Yenə otlar göyərəcək
Açılacaq gül-çiçək
Bülbül yenə gül eşqiylə ötəcək;
Bir oğlanla bir qız yenə
Çiçəklərin arasında itəcək...

("Qismət")

Lakin suallar çox, fikirlər müxtəlif, cavabların verilməsi isə olduqca müşkül...

Yazarın sözün həqiqi mənasında düşünən beyinə və həssas qəlbə malik olması bir çox hallarda özünü sualların qoyulmasında göstərir. Problemin qoyuluşu, özü-özlüyündə, bədii yaradıcılıqda ideya daşıyıcısına çevrilməyə qadirdir. Sözügedən yazarın böyüklüyü də məhz bir - birindən vacib bəşəri sualların qoyulmasında və onların cavablandırılmasına öz alim təxəyyülündən çıxış edərək riyazi dəqiqliklə cavab verməyə cəhd etməsindədir. "Ömrün harasındayıq" şeiri bu mənada əlamətdardır. Burada da sual qoyulur, amma təsdiq formasında:

Sadə insanlardan biriyik biz də –
Mərhəmətə layiq, hörmətə layiq.
Sözümüz də xoşdur, əməlimiz də,
Haqqa söykənənlər sırasındayıq.
Di gəl, bir nisgil var ürəyimizdə –
Bilmirik ki, ömrün harasındayıq...

İnsanı daim narahat edən bir sual: ömrün nə qədəri gedib, nə qədəri qalır? Bu sualı cavablandırmaq isə mümkün deyil. Bəs nə etməli? Müəllif dolayısı ilə də olsa, buna cavab verməyə çalışır. Lakin əvvəlcə şeirin bəzi özəllikləri haqqında. Aşkar nəzərə çarpmasa da, şeirdə fikir ardıcıllığı baxımından klassik aşıq poeziyasının vucudnamə forması ilə bir yaxınlıq var: burada da olumdan ölümə gedilən yol izlənilir, lakin yalnız insan həyatının dövrləri baxımından deyil, qəlbinin, fikri - düşüncəsinin keçdiyi yol baxımından. Bunu şeirdən bəzi sətirləri misal gətirməklə göstərə bilərik: *«Bilirik ki, uşaq deyilik daha»*, *«Bilirik ki, gənclik arxada qaldı»*, *«Hələ sönməsə də gənclik alovu»*, *«Hələ ki, gedirik sabaha»*... Güman ki, izaha ehtiyac yoxdur. Lakin bu poetik sadalama özü-özlüyündə məqsəd deyil. Müəllifi maraqlandıran zahiri inkişaf yolu deyil, daxili təkamüldür ki, bu da

son nəticədə ilk nəzərdən adi görünə biləcək bir şeiri klassik Şərq fəlsəfi şeirinə yaxınlaşdırır. Və bu yerdə kiçik bir haşiyə çıxmaq istərdik. Maraqlıdır ki, Hamlet İsaxanlının şeirlər toplusunun redaktoru görkəmli filosof Camal Mustafayevdir. Bu, özü-özlüyündə şeirlərin fəlsəfi zəminin güclü olmasına işarədir. Amma qayıdaq söhbətimizin əsas məcrasına.

Könül coşmaq istər, meydanımız dar,
Sıyrıla bilmirik, köhnə qındayıq,
Ruhumuz bədəndə tutmayır qərar,
Biz iki sevdanın arasındayıq.

("Ömrün harasındayıq")

Dar meydan hansıdır, köhnə qın nədir, iki sevda nə məsələdir? Suallar, suallar, yenə də suallar...

Şərq sufi poeziyasına vaqif olanlar bilir ki, dar meydan insan ruhunun müvəqqəti məkanı, daşıyıcısı olan bədəndir. Ruh müəyyən vaxta qədər bu «qın»da qalmalıdır, yalnız ariflik dərəcəsinə çatanlarda müəyyən məqamlarda bir anlığa «sıyrıla» bilir, lakin yenə də yerinə qayıdıb Həqqin müəyyənləşdirdiyi vaxtı gözləyir ki, «köhnə», köhnəlmiş qından birdəfəlik sıyrılaraq öz «əbədi sevgisinə» qovuşsun. Və bu yerdə iki sevda məsələsi önə çıxır: müvəqqəti, yer həyatına olan sevda və əsl məhəbbətin yeganə obyekti olan Həqqə olan sevda. İlahi məhəbbət yolunun yolçusu əsl məhəbbət obyektinə qovuşmaq üçün müvəqqəti yer həyatını könüllü tərk edə bilməz. Buna görədir ki, insan iki sevda arasındadır. Hansına daha yaxın olduğunu isə o özü bilmir və bilə də bilməz. Belə olarsa, həyat öz mənasını itirər. Həyatın mənası məhz bu müəmmadadır.

Həyat yoldur, olumdan ölümə gedən yol. Həyat insana əmanət verilmiş ömrün «xərclənməsidir». Əsas məsələ bu əvəzsiz, təkrarolunmaz nemətin hara və necə xərclənməsindədir. Onsuz da hamımız

Yaşamağın odu ilə
Əriyirik
Bir şam kimi gilə-gilə.

("Ölümə nə var ki")

Əriyirik... və günlərin bir günü ömür tükənir.

Olumun, yaxud ölümün daha ağır olduğunu söyləmək çətindir. Lakin bu məsələdə də Hamlet İsaxanlı üçün elə bir müəmma, hər halda ilk nəzərdə, yoxdur. O, yenə də hər şeyi şeir diliylə, fəlsəfi baxışla və riyazi dəqiqliklə ölçür-biçir və gəldiyi qənaəti söyləyir:

Ölümə nə var ki, gülüm?!
Bircə dəfə gəlir ölüm,
Ölüm deyil həyatda ən böyük zülm,
Yaşamaqdır bu dünyada ən ağır iş.
Varlığımız yoxluğa doğru bir giriş,
Həyatımız ölümə gedən yol imiş...

("Ölümə nə var ki")

Hamlet İsaxanlı poeziyasının mövzu diapazonu xeyli genişdir. Burada təbiət şeirlərini də ("Lalə"), məhəbbət lirikası nümunələrini də ("Yadındamı", "Səni çox sevirdim", "İkimizdən birimiz" və b.), urbanizasiya mövzusunda əsərləri də ("Bakı»", "Şəhərlilər kənddən gəldi" və b.) göstərmək olar. Lakin Hamlet İsaxanlı şeirinin əsas qayəsini fəlsəfi məzmun təşkil etdiyindən biz məhz bu qəbildən olan əsərlər üzərində durmağı lazım bildik. Sözümüzün təsdiqini kitabın lap əvvəlində verilmiş "Fikir yükü" şeirindən də görmək olar. Müəllifin tərtibatda birinci təqdim etməyə ehtiyac duyduğu əsər əslində kitabın ən əsas fikirlərini özündə ehtiva edir, onun fəlsəfi yönümlü olduğunu nəzərə çatdırır, bariz şəkildə insan və doğma torpaq, vətən və yaradıcı insan probleminə toxunur. Yazar özü haqqında tamamilə haqlı olaraq "Fikir yüklü sənətkaram" deyir:

Fikir yüklü sənətkaram,
Düşünürəm aram-aram;
Tanrım, saxla nəzərində
Bu torpağın üzərində
Düşündükcə bəxtiyaram...

Adətən, kitab haqqında söz deyənlər əvvəldən başlayıb, axırdakı əsərlə sözlərini bitirirlər. Biz isə kitabdakı ikinci şeirlə sözümüzə başlayıb, birinci şeirlə fikrimizi yekunlaşdırmağa çalışdıq və kitabı oxumaq istəyənlərin özləri üçün də düşünməyə yer qoyduq.

Tamilla ƏLİYEVA,
BSU-nun Ədəbiyyat nəzəriyyəsi kafedrasının dosenti

Bolqarıstandan iki məktub

BOLQARISTANDA BOLONİYA SİSTEMİNƏ SƏRBƏST QOŞULAN İLK UNİVERSİTET

Xəzər Universitəsinin Biologiya elmləri departamentinin müdiri İsmət Əhmədov ERAMUS proqramı çərçivəsində hal-hazırda Bolqarıstanın Ruse Universitetində elmi məzuniyyətdədir. Onun universitet haqqında təəssüratlarını oxucularımıza təqdim edirik.

Angel Kançev Ruse Universiteti Bolqarıstanın Ruse (Rousse) şəhərində və həm də bir milyon əhalilisi olan Ruse vilayətində yeganə ali məktəbdir. Ruse şəhəri Avropada ən uzun çay hesab edilən Dunay çayının (13 Avropa ölkəsinin ərazisindən keçir və uzunluğu 3500 km-dir) sahilində, Bolqarıstanın şimal-şərqində, Rumıniya ilə sərhəddə yerləşən liman şəhəridir. Ruse Bolqarıstanın tarixində bir çox hadisələrin ilk baş verdiyi şəhərdir: ilk dəmir yolu Ruseni Varna şəhəri ilə birləşdirmişdir, çap evi ilk dəfə bu şəhərdə təşkil edilmiş və ilk bolqar qəzeti, xəritəsi burada çap edilmişdir, peşəkar müəllimlərin ilk cəmiyyəti, ilk texniki məktəb və cəmiyyət, ilk hava bürosu, ilk sənaye - ticarət palatası, ilk səyyar sərgi bu şəhərdə yaradılmışdır. 1981 - ci ildə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülmüş Elias Kanetti də bu şəhərdə anadan olmuşdur. Avropa ailəsinə sürətlə inteqrasiya edən Ruse beynəlmiləl şəhərdir. Burada bolqarlarla yanaşı bir sıra millətlərin nümayəndələri, o cümlədən türk, alman, fransız, yunan, italyan, yəhudi və s. yaşayır. Onların əksəriyyətinin, hətta, öz dillərində məktəbləri də var.

Ruse Universiteti Avropada İkinci Dünya müharibəsi qurtarandan az sonra, 1945 - ci il noyabrın 12-də yaradılmışdır. Bu universitet Bolqarıstanın paytaxtından kənarda təsis edilən ilk ali məktəb idi. İlk yaradılan zaman onun üç fakültəsi olmuşdu.

Universitetin əsas məqsədi kənd təsərrüfatı maşınları və texnikası üzrə mütəxəssislər hazırlamaq idi. Universitet bu illərdə sürətlə böyümüş və Bolqarıstanda bu istiqamətdə təhsil verən mərkəzə çevrildiyidən 1966 - cı il iyunun 13-də Təhsil Nazirliyinin qərarı ilə Maşınqayırma, Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və Elektrik-



ləşdirilməsi İnstitutu adlandırılmışdır. Sonralar universitetin imkanları daha da artmış və nəqliyyat, elektronika, kompüter ixtisasları üzrə də kadrlar hazırlamağa başlamışdır.

1981-ci ildə universitetin adı dəyişdirilərək, Angel Kançev adına Texniki Universitet adlandırılmışdı. 90-cı illərdə sosialist bloku dağıldıqdan sonra Bolqarıstanda baş verən islahatlarla əlaqədar, 1995-ci il avqustun 1-də Bolqarıstan Milli Məclisinin qərarı ilə o, Angel Kançev Ruse Universiteti adlandırılmışdır. Hal-hazırda Ruse Universitetinin Kənd təsərrüfatı və mühəndislik, Mexanika və maşınqayırma texnologiyası, Elektro-

texnika və avtomatlaşdırma, Nəqliyyat mühəndisliyi, Təbiət elmləri və təhsil, İqtisadiyyat və menecment, Hüquq və İctimai sağlamlıq fakültələrində kənd təssərrüfatı texnikası və texnologiyası, nəqliyyat mühəndisliyi üzrə mütəxəssislər, təbiət elmləri, ictimai sağlamlıq, biznes və menecment, hüquq üzrə kadrlar hazırlanır.

Ruse Universiteti Bolqarıstanda Boloniya sisteminə sərbəst qoşulan ilk universitetdir. İndi burada tədris tamamilə Boloniya sistemi üzrə həyata keçirilir. Dövlət universiteti statusunda fəaliyyət göstərən bu universitetdə 9200 tələbə təhsil alır, universitetin 17 ölkədən 470-ə qədər xarici tələbəsi var, professor-müəllim heyətinin sayı 709 - dur, onlardan 653 - nün Dr.S və PhD elmi dəcələri var, 450 professor və 203 dosent tədrisə cəlb edilmişdir. Universitet təhsilin üç pilləsi, bakalavr (4 il), magistr (1,5 və ya 2 il) və PhD (minimum 3 il) üzrə tədris aparır, 41 ixtisas üzrə ali təhsil diplomu və eləcə də təhsil, humanitar elmlər, iqtisadiyyat və menecment, riyaziyyat və təbiət elmləri, sağlamlıq, mühəndislik və texnologiyalar üzrə elmi dərəcələr verən universal bir ali məktəbdir.

Universitetin əsas binasından başqa müasir tələblərə cavab verən 5 tədris korpusu və tədqiqat laboratoriyaları, böyük imkanlara malik kitabxanası, o cümlədən dünyanın bir çox universitetlərinin kitabxanalarına qoşulmaq imkanı verən elektron kitabxanası, səkkiz tələbə yataqxanası, o cümlədən ailəli tələbələr üçün iki yataxana korpusu və bir neçə yeməkxanasıı var.

Ruse Universitetində dərslər sentyabr ayinda başlanır, hər biri 15 həftədən ibaraət iki semestr ərzində tələbələr bir ildə maksimum 60 kredit toplaya bilirlər. Universitet tələbələri çox maraqlı tələbə həyatı keçirirlər. Onlar müxtəlif cəmiyyət və klublarda birləşirlər. Belə klublara misal olaraq tələbələrin Xalq Rəqsləri Klubunu, Pantomima Studiyasını, Dram Dərnəyini, Foto həvəskarları Klubunu, Ədəbiyyat Klubunu, Rəssamlar Klubunu və Müasir Rəqslər Cəmiyyətini göstərmək olar. Universitet tələbələri üçün yüksək səviyyədə idman mərkəzləri və futbol meydançaları yaradılmışdır.

Universitet illik tələbə qəbulunun sayına, tələbələrin ümumi sayına, dövlət tərəfindən ayrılan büdcə vəsaitinə, doktoranturada oxuyan tələbələrinin sayina, hər tələbəyə düşən auditoriya sahəsinə və digər göstəricilərə görə Bolqaristanda ali məktəblər arasında 12-ci pillədə durur.Ruse Universiteti Dunay ölkələrinin ali təhsil müəssisələrindən ibarət Avropa Universitetləri Assosiasiyasının üzvüdür. Universitet axırıncı dəfə 2006 - cı il yanvarın 26-da Bolqarıstan Milli İnkişaf və Akkreditasiya Agentliyi tərəfindən "çox yaxşı" ali məktəb dərəcəsi ilə 6 il müddətinə yenidən lisenziya almışdır.

Universitetin ən böyük uğurlarından biri də onun geniş beynəlxalq əlaqələr və xarici tələbələri cəlb etmək üçün yaxşı imkanlar yaratmasıdır. Xarici ölkə vətəndaşları təhsil haqqı ödəyirlər. Onlar bakalavr və magistr pillələrində bolgar dilində təhsil alırlar. Bunun üçün onlar əvvəlcə 10 aylıq dil kursunu keçməlidirlər.

Ruse Universiteti öz xarici əlaqələrini NATO – nun EC, VI və VII FRAMEWORK elmi proqramları, PHARE və CEEPUS, ERASMUS, LEONARDO DAVINCI, COMENIUS akademik proqramları çərçivəsində uğurla inkişaf etdirir, Bolqarıstanda ERASMUS proqramına qoşulan ilk universitetdir. Universitet Avropanın 24 ölkəsinin universitetləri ilə 80-ə qədər ikitərəfli mübadilə və əməkdaşlıq müqavilələri bağlamışdır. O həmçinin Xəzər Universitəsi ilə birlikdə ERAZMUS proqramında iştirak edir və universitəmiz ilə birgə əməkdaşlıq haqqında müqavilə imzalamışdır. Ruse Universitetində mübadilə proqramları çərçivəsində ildə 70-ə qədər bakalavr, magistr və PhD tələbələri təhsil alır. ERASMUS proqramı ilə gələn xarici tələbələr bakalavr və magistraturada bolqar dilində, PhD tələbələri isə ingilis dilində təhsil alırlar.

RUSE ŞƏHƏRİNƏ SƏYAHƏT ETMƏYƏ DƏYƏR

Ali təhsil sahəsində əməkdaşlığı özündə əks etdirən Avropa Birliyinin Erasmus Mundus Proqramı çərçivəsində 6 aylıq tədqiqat aparmaq üçün 2009-cu il aprel ayının 1-də Bolqarıstanın Ruse şəhərindəki Angel Kançev Universitetinə gəldik. Yeri gəlmişkən, Erazmus Mundus "Xarici Əməkdaşlıq Təşəbbüsü" ali təhsil sahəsində Erasmus Mundus, Erasmus, Tempus, Asiya-Link, ALFA, Alban və Edu-link kimi digər təşəbbüsləri tamamlayan yeni əməkdaşlıq və mobillik proqramıdır. Erazmus Mundus "Xarici Əməkdaşlıq Təşəbbüsü" tələbələrə və professor-müəllim heyətinə ünvanlanmış əməkdaşlıq və mobillik proqramı vasitəsilə Avropa İttifaqı və Üçüncü Ölkələr arasında ali təhsil sahəsində əməkdaşlığın inkişafını sürətləndirmək məqsədilə işlənib hazırlanmışdır. Ruse Universiteti Avropanın bir sıra qabaqcıl ali məktəbləri sırasında bu proqramın tərəfdaşıdır. 1945-ci ildən fəaliyyətə başlayan universitet bu gun Boloniya prosesinə və ümumən Avropa təhsil məkanına tam inteqrasiya olunmuşdur. Universitet haqqında conrakı yazılarımızda ətraflı məlumat verməyi düşünürük. Bu gün isə dəyərli oxucularımıza Ruse şəhəri haqqında məlumat vermək istəyirəm.





Bolqar dilində qədim adı Ruşuk, türk dilində Ruscuq olan Ruse Bolqarıstanın beşinci böyük şəhəridir. Əhalisinin sayı 178 min nəfərdir. Şəhər Dunay çayının sahilində yerləşir və demək olar ki, bu çayda Bolqarıstanın ən böyük limanıdır. Tarixi mənbələrə görə, müasir Rusenin ərazisində 5000 il bundan əvvəl insanlar məskunlaşmağa başlamışlar. Bizim eranın birinci əsrində imperator Vespasian burada qala və Seksaqinta Prista (60 gəmi) limanı inşa etdirir. Qala Belqraddan (Sinqidum) Dunayın deltasına və Qara dənizə gedən əsas yolun üzərində idi. 250-ci ildə qot tayfaları qalanı dağıtsalar da, əsrin sonunda romalılar onu yenidən bərpa edirlər.

Dördüncü əsrdə qala şimaldan gələn barbar tayfaları tərəfindən yenidən dağıdılır. IX-X əsrlərdə bolqarlar qalanı yenidən bərpa edərək, onu gənc döyüşçülərin himayədarı şərəfinə Ruse adlandırdılar. XIX-XX əsrlərdə avropalılar şəhəri "Parçalanmış Dunayın Vyanası" adlandırmağa

başladılar, çünki şəhər binalarının arxitekturası Qərbi Avropa dövlətlərinin paytaxtlarını xatırladırdı.

Rusenin coğrafi mövqeyi ölkənin iqtisadi və siyasi tərəqqisinə səbəb olur və o, Osmanlı İmperiyası dövrünün ən inkişaf etmiş şəhərinə çevrilir və Dunayda strateji baza roluna malik olur. Şəhər XV əsrin sonlarında İspaniyadan qovulmuş böyük yəhudi icmasını qəbul edir. Osmanlı İmperiyası Balkanları tərk etdikdən sonra Ruse Bolqarıstanın şimalında sərhədyanı şəhər və liman olaraq qalır. Məhz həmin illərdə şəhərdə çoxlu sayda gözəl binalar inşa edilir ki, onların çoxu bu günə qədər saxlanmışdır.



Bu gün təpələrdə yerləşən şəhər, ilk növbədə Bolqarıstanın ən iri liman şəhərlərindən biridir. Dunay çayı üzərindəki nəhəng körpü Rumıniya ilə əlaqəni təmin edir və iki ölkə arasındakı sərhəd bu körpüdən keçir. Rusede yaşayan əhalinin milli tərkibi də çox rəngarəngdir: burada qaraçıların sayı Bolqarıstanın digər şəhərlərinə nisbətən xeyli çoxdur. Rusenin inzibati, tarixi və memarlıq mərkəzi şəhərin Baş meydanı və ümumən canlı, müasir, gözəl memarlıq qurğularına malik şəhər mərkəzi hesab edilir. Eyni zamanda, şəhər daxilində çoxlu tarixi abidələr yerləşir.

Bunların içərisində şəhərin Tarix muzeyi əzəmətli görkəmi ilə adamı valeh edir. Muzey Bolqar çarı Birinci Aleksandrın sarayı olmuş binada yerləşir. Baş meydanda Azadlıq abidəsi ucalır. Bu abidə italiyalı memar Arnoldo Tsokinin ən uğurlu işi hesab edilir. Şəhər mərkəzindən şərqdə yerləşən qızılı gümbəzli "Panteon" binasında bolqar xalqının əsl qəhrəman hesab etdiyi şəxslər – Lyüben Karavelov, Zaxari Stoyanov, Baba Tonka, Angel Kançev, Stefan Qaraca, Panoyt Xitov dəfn olunmuşlar.

Gənclər parkında, müqəddəs Boqoroditsı kilsəsindən 50 metr aralıda 1837-ci ildə Sultan Mahmudun şəhərə gəlişi şərəfinə ucaldılmış mərmər sütun, "Çar daşı" heyrət doğurur.

Kiçik olmasına baxmayaraq, Ruse şəhərində 200-ə yaxın bina tarix-memarlıq irsi fonduna daxil edilmişdir ki, onlardan da 12-i xüsusi əhəmiyyət kəsb edir. Bunların içərisində 1902-ci



ildə memarlar Raul Brank, Georqi Lanq və Frank Şolts tərəfindən inşa edilmiş və damında qanadlı Merkuri olan Doxodnoto binası (köhnə teatr) qeyd edilməlidir. Ən əhəmiyyətli tarix-memarlıq abidələri icərisində - musiqi gimnaziyasının, katolik kilsəsinin, Əmanət kassasının, Lyuben Karavelov adına kitabxananın, Dənizçilər evinin binasını, Semeonov qardaşlarının evini qeyd etmək olar.

Ruseyə muzeylər şəhəri desək, heç də yanılmarıq. Panteon və tarix muzeyi ilə yanaşı burada Tonka nənənin muzeyi, Zaxari Stoyanovun və Tom Kırdjıyevin ev muzeyləri, Şəhər məişəti muzeyi, Şəhər bədii qalereyası fəaliyyət göstərir. Muzeylər içərisində Bolqarıstanın ən qədim dəmiryolu stansiyalarının birində yerləşən Milli nəqliyyat muzeyi xüsusi qeyd edilməlidir. Bu



muzeydə sultan Əbdül Əzizin, çar Ferdinandın və çar üçüncü Borisin vaqonları saxlanılır.

Rusenin görməli yerləri siyahısına Leventabiya qalasını, "Kyuntukapiya" darvazasını, 1884-cü ildə memar Frans Qryunanger tərəfindən inşa edilmiş və meteoroloji tədqiqatlar üçün nəzərdə tutulmuş Donanma qülləsini və çoxlu heykəlləri də daxil etmək olar. Burada 1885-ci il serb-bolqar müharibəsində həlak olmuş Tonka Nənəyə, Lyüben Karavelova, Stefan Qaracaya, Rayço Nikolova, Angel Kançevə və başqalarına heykəllər ucaldılmışdır. Həmçinin sovet əsgərinin xatirəsinə ucaldılmış abidə qorunub saxlanılır.

Rusedə Opera, Filarmoniya, Dramatik və Kukla teatrları fəaliyyət göstərir. Muasir Ruse ölkənin ən iri musiqi mərkəzi hesab edilir. Hər il burada Mart musiqi günləri, Folklor musiqisi festivalı, Beynəlxalq caz forumu keçirilir.

Ruse həm də yaşıllıqlar şəhəridir. Şəhərin demək olar ki, hər bir tərəfi yaşıllıq və insana sakitlik gətirən parklardır. Şəhərin mərkəzindən cəmi 6 km məsafədə "Prista" adlanan Qərb parkı yerləşir. Parkdakı enliyarpaq ağaclar, gözəl tərtib olunmuş xiyabanlar, Dunaydakı "Lyülyaka" adlanan ada buraya gələnlərin ruhunu oxşayır. Ruseden Şərq tərəfə 12 km məsafədə istirahət, idman və turizm üçün maraqlı olan digər böyük obyekt – Lipnik meşə parkı yerləşir. Burada yaradılmış süni göllər, zooloji guşə, idman bazası, kempinq turizm həvəskarlarının xidmətindədir.

Ruse vilayəti ərazisindən axan Rusenki Lom çayı Beli, Malki və Çerni Lom adlı qolları ilə birlikdə nadir bir mənzərə yaratmışdır. Ruse şəhərindən 20 km cənubda çay boyu 3 260 ha ərazidə Təbiət Parkı yaradılmışdır. Bu ərazidə - Rusedən 31 km cənubda XII-XIV əsrlərdə mövcud olmuş Çerven şəhərinin xarabalıqlarına rast gəlmək mümkündür. Dövrümüzə gəlib çatmış qala divarları, gözətçi qülləsi, iki darvaza və digərləri baxanları heyrətləndirir.

Orta əsrlər dövrünün sonlarında çay vadisi tərki-dünya olmuş rahiblərin məskəninə çevrilir. Bu dövrdə burada monastır kompleksləri (İvanov, Kiçik cənnət, Böyük Cənnət, Koşuta), həmçinin kilsələr inşa edilir ki, onlardan bəziləri dövrümüzə qədər qorunub saxlanılmışdır. İvanov kilsəsinin rəsmləri Trevnen rəssamlıq məktəbinin ustalarının işi olmaqla orta əsrlər Bolqar incəsənətinin zirvəsi hesab olunur və 1983-cü ildə YUNESCO-nun Mədəniyyət inciləri siyahısına daxil edilmişdir.

Ruseni məşhurlaşdıran yazıçı-dramaturq Elias Kanettini də qeyd etmək lazımdır. O, Bolqarıstanın Nobel mükafatı alan yeganə vətəndaşıdır.

Beləliklə, Ruse şəhərindən çox şey öyrənmək olar və buraya səfər etməyinə dəyər.

Bahadur BİLALOV,
ATİ-nin "Turizm biznesinin təşkili və texnologiyası" kafedrasının müdiri, tarix elmləri namizədi, dosent



ŞEİR ŞƏRİN İNKARIDIR

Poeziyanın üstün dərəcədə mənəvi sənət olduğu təkzibedilməz gerçəkdir. Niyyəti haqqın, xeyirin gerçəkləşməsinə fəal xidmət etməyə yönəlib. Bu təbiətinə görə, eyni zamanda şəri inkar edir. Xeyirlə şər arasında ziddiyyətlər isə dövrün xarakterilə şərtlənir.

Mənəviyyatın, əxlaqi əsasların sarsıldığı zamanda şərə qarşı etirazlar sənətdə müxtəlif əksini tapır. Bunun məlum bir forması sərt gedişatdan üz çevirib, xəyal dünyasına üz tutmaqdır. Bunu fəlsəfi anlamda "gerçəklikdən qaçmaq" kimi xarakterizə edirlər. Belə meyl şair Rafiq Ələkbərin şeirlərində ifadə edilib. Şairin "Seçil-



miş əsərlər"indən alınan nümunələrin təhlili əsasında onun əhval-ruhunu səciyyələndirmək olar.* Bu mənada təhlilə başlamazdan, bir gerçəyi bildirmək istəyirəm. Rafiq Ələkbərlə tanış deyiləm, ancaq kitabını mənə göndərib. Tanınmış ədəbiyyatşünas alim Rüstəm Kamal bu kitaba maraq çəkən ön söz yazıb.

Rafiq Ələkbər dini etiqadlı şairdir – bu amil onun bədii yaradıcılığına təsir edir. Yer üzündə hakimi - mütləq olan şərə qarşı etirazını dini təsəvvür tərzində bildirir. Yeri günahlı, göyləri müqəddəs bilən xəyalı inanca köklənir.

Tanrı göy üzünü qorumaq üçün,
Təmizlik bəxş etdi ancaq göylərə.

İlahi mələklər göylərdə sakin,
Öz şər mələyini göndərdi yerə.

Bu şər mələyi – iblis dağıdıcı niyyət daşıdığı üçün əzəldən dünya nizamını pozur. Buna görə bu dünyanın gedişi haqq yolunun əksinədir. Gerçəkliyə inamsızlıq ovqatı bu növ təsəvvürdən irəli gəlir.

Pozulur dünyada haqqın gərdişi,
Bu dünya fırlanır, çox nəhs fırlanır.
Qiyamətə qalıb dünyanın işi,
Çünki dünyamızda iblis fırlanır.

İblis yerdə insanlığı haqq yolundan ayırıb, yolsuzluğa sürüklədiyindən, bəşər birliyə qovuşa bilmir. Şairin fikrincə, birlik ahəngi yalnız göylər aləminə məxsusdur. Göylərin əzəmətini burda vəhdət ahənginin hakim olmasında görür.

Yetim yaradıbdır Tanrı bu yeri,
Bu yer hara gedir, hara sürünür.
Göylər bir-birinə qardaşdır deyə,
Orda kiçiklər də böyük görünür.

İnsan cəmiyyətində belə birlik yaratmağa qarşı duran iblisin qüvvət mənbəyi – hərislik, tamahkarlıqdır. Bu ehtiraslara mübtəla olan adamlar ifrat varlanır, başqalarınınsa yoxsul yaşamalarına səbəb olurlar. Bunun doğurduğu fəlakətlərdən dünya hələ ibrət dərsi almayıb.

Keçdi yolu çox dərslikdən,
Çox inaddan, çox tərslikdən,
Var-dövləti hərislikdən
Viran dünya, talan dünya.

Var-dövlət hərisliyinə cahillik, güc qarışanda müharibələr törədir. Bu dəhşətli hadisə nəsillərin qurub yaratdıqlarını məhv edir. Şair müharibələrin həyata zidd olduğunu ibrətamiz tərzdə mənalandırır. Qarışqaların yer altında həyat qurmaq üçün necə ağır zəhmətə qatlaşdıqlarını misal göstərir. Ancaq insan yaşadığı yer üstündə qurulanı müharibələrdə yıxır.

* *Rafiq Ələkbər, Seçilmiş əsərləri, Bakı, "Adiloğlu" nəşriyyatı, 2008.*

Üstünə dünyanın dərdləri yağır
Ən kiçik canlıdır adi qarışqa,
Yük çəkir özündən nə qədər ağır.
Torpağın altında yuva qurmağa
Gecə də, gündüz də can atacaq can.
Torpağın üstündə "Dünya evi" var,
Onu xarabaya çevirir insan.

Şair zamanı qınayır; onun haqsızlıqlarilə batini ixtilafını bildirir. Xüsusilə ənənəvi olaraq mənfi çalarlı mənada işlədiən "Zəmanə"ni əsas tənqid obyektinə çevirir. "Zəmanə" sözü adətən insanı saxtalaşdıran dövr mənasında işlənir. Xeyirlə şərin, halalla haramın, haqqla nahaqqın həqiqi yerlərini dəyişik salan bir dövr. Belə durumda hər hansı sağlam əxlaqi meyar itirilir. Bu gerçəklik şəxsi mənfəət üçün istənilən üsulda zəmanədən istifadə etməyə meydan verir. Həmin gedişat insanın bu yöndə bacarığını yüksək qiymətləndirir, mənəvi keyfiyyətlərinin fərqinə varmır.

Bəlkə də zamanın cahilliyidir,
Nadanı qaldırıb başda öyürlər.
Var-dövlət, pul-qızıl düşgünlərinə
Zəmanənin adamıdır deyirlər.

Zəmanə adamı olmadım qardaş,
Bəs hara aparım köçümü mənim.
Mən ki, bu zamanla hesablaşmadım,
Nə zaman anladı içimi mənim.

Zamanın zahiri maraqlarilə şairin ruhu həyatı qarşılıqlı təzaddadır. Gerçəklik onun zəruri mənəvi ehtiyacını, istəyini təmin etmir. Onun bu istəklərilə nisbətdə zamanın geri qaldığını deyir.

Ayaqlaşmır bəlkə zaman mənimlə,
Zaman geridədir, çox geridədir.

Şairin bu qeyri-adi hökmü onun özünü zaman-məkan fövqündə düşündüyünü göstərir. Ancaq şair, alim, yaxud filosof, Hegelin ifadəsi ilə desək, öz zamanının oğludur. Yəni hər kəs müasiri olduğu zamanı ifadə edir. Heç kim öz dövrünün hüdudlarından kənarda yazıb yaratmır... Belə sərbəstlik hökmən qeyri-adi görünmək cəhdindən doğur. Doğrudur, şair yaradıcılıqda sərbəstliyin, azadlığın vacibliyini haqlı vurğulayır.

Sərbəstlik insanın öz azadlığı,
Onu damcı-damcı bulaqlaşdırır!

Kiminsə gözüylə baxmaq dünyaya
Özünü özündən uzaqlaşdırır.

Ancaq özünəməxsusluğu mütləq mənada təsəvvür etmək obyektiv fikirlə uyğunlaşmayan təsadüfi iddiaya gətirir. Sənətdə orijinallıqla bağlı düşüncələrində Hegel bu cəhəti xatırladır. *"...Sənətkarın öz təsadüfi fikrini qeyd etdiyi sərbəstliyi ilə orijinallığı qarışdırmaq olmaz. Adətən orijinallıq deyəndə konkret subyektə xas olan və başqa adamın ağlına gəlməyən nəsə qəribə bir şey yaratmağı anlayırlar. Ancaq bu, yalnız fəna özünəməxsusluqdur".*

Nəhayət, Rafiq Ələkbərin bəzi şeirlərində təbiət mövzusuna aid olan məqamları izah edək. Bəzən insan cəmiyyətdə müxtəlif haqsızlıqlardan, ruhu gərginlikdən qaçıb, təbiətə sığınmağa can atır. Təbiət şər, ikiüzlülük bilmir; ruh onda rahatlıq tapır. Bu mənada şairin sülh quşlarına – göyərçinlərə həssas qayğıkeşliyini ifadə edən sətirləri maraqlıdır.

Buyurun xoş gəldiz, ağ göyərçinlər,
Bu mənim özüməm, bu mənim evim.
İnsan nankorluğu məni bezdirib,
Sizintək müqəddəs quşları sevim.

Şair hərdən bu mövzuya toxunanda Məmməd Araz poeziyasının güclü təsirini əks etdirir.

Dedim daş olaydım sal qayalarda
Dünyanı daş kimi duyub qanaydım.
Çox zaman çörəyim daşdan çıxıbdır,
İndi də ömrümü daşdan yonaydım.

Məmməd Araz məşhur "İnsan qayalar" şeirinin əvvəlində bu fikri belə ifadə edirdi:

Bir qayaya söykənmişəm, deyirəm kaş
Bax beləcə daşa dönəm yavaş-yavaş,
Taleyimi qayaların taleyinə bağlayam mən
Bircə insan düşüncəmi saxlayam mən.

Məmməd Araz təbiətin batini cazibəsini ruhən dərindən duyurdu. Ana təbiətlə onun arasında qarşılıqlı bir cazibə yaşanırdı. Bu xüsusda yazdıqları təbii, hikmətli idi; təbiətin ecazkar dünyasına həssas maraq oyadırdı.

Camal MUSTAFAYEV

HƏYAT LÖVHƏLƏRİ

SƏMƏRƏSİZ İLHAM

Elmi-tədqiqat institutunun baş elmi işçisi Fikrət müəllim iş vaxtı başlayandan başını qaldırmadan, ara vermədən nəsə yazırdı. Bunu görən iş yoldaşları:

– Ay Fikrət müəllim, bir fasilə eləyin də, nə olub belə? – soruşurlar.

– İlhamım gəlib, dayana bilmirəm – demişdi Fikrət müəllim.

İş vaxtının axırına yaxın isə Fikrət müəllim gün ərzində yazdıqlarını cırmağa başlamışdı. Nə baş verdiyi ilə maraqlanan iş yoldaşlarının sualına Fikrət müəllim:

– Cırmağım gəlib – cavabını vermişdi.

BALACA PARİS

İranın Sərein kurort şəhəri barədə çox eşitmişdim. İmkan tapan kimi bu şəhərə təşrif buyuracağıma söz vermişdim. Bu heç də çətin məsələ deyildi, çünki keçdiyim Təbriz-Astara magistralının Ərdəbilə yaxın bir yerində "Sərein-12 km" lövhəsini dəfələrlə görmüşdüm, yəni bu şəhər yolumun üstündə idi.

Təbrizə növbəti səfərlərimin birində qayıdan baş Səreinə dönməyə qərar verdim və bu şəhər haqqında bildiklərimə əlavələr etmək üçün çox məlumatlı bir şəxs olan mehmanxana sahibinə müraciət etdim. O, fikrimi ürəkdən alqışladı və bu şəhər haqqında böyük məhəbbətlə danışdı:

– Sərein balaca Parisdir. İlahi bu yerlərdən məhəbbətini əsirgəməyib. Bir tərəfdə başı qarlı əzəmətli Savalan dağı, o biri tərəfdə insanlara şəfa verən mineral isti sular, şəffaf, saf dağ havası insanlara "gəl-gəl" deyir.

– Hacı, hər yerin bir məşhur yeməyi olur. Səreinlilərin sevimli xörəkləri hansılardır? – soruşuram.

– Səreinlilər öz aşları ilə məşhurdurlar İranda. Sərein qaymağı, balı da məşhurdur – deyib, Hacı telefon nömrəsi yığdı:

– Həsən ağa, salam, Hacı Salehdir, Təbrizdən. Bir tanışım Səreinə getməyə hazırlaşır, ziyalı adamdır, professordur. Xahiş edirəm onun istirahətini ən yüksək səviyyədə təşkil elə. Elə bil mənə qulluq edirsən.

– Gözüm üstə yeri var, gəlsin, Hacı, narahat olmayın, hər şey qaydasında olacaq – telefondan gəlirdi səs.

– İnanın, məmnuniyyətlə sizi müşayiət edərdim bu gözəl səfərdə, amma imkanım yoxdur. Amma inşallah, bir dəfə sizi özüm aparacam o yerlərə.

Mən Hacı Salehə öz minnətdarlığımı bildirdim. Həsən ağanın telefon nömrəsini götürüb, səfərə hazırlaşmağa başladım. 3-4 gün Səreində qalmaq fikrim vardı.

Həsən ağa məni çox səmimi, mehribanlıqla qarşıladı. 35-40 yaşında yaraşıqlı, boy-buxunlu, gülərüz, üz-gözündən sağlamlıq yağan, işgüzar təsiri bağışlayan, enerjili bir adam idi Həsən ağa. Tanışlıqdan məlum oldu ki, o, bal, qaymaq biznesi ilə məşğul olur. Sərein və onun ətrafının, Ərdəbilin müəyyən bir hissəsinin bal, qaymaq təminatı Həsən ağadan asılı idi.

Həsən ağa hər dəfə Səreinə gələndə Hacı Salehin qaldığı, hər cür şəraiti olan mənzildə qalmağımı məsləhət bildi mənə.

– Həsən ağa, mənə göstərdiyiniz hörmətə, yaratdığınız şəraitə görə minnətdarlığımı bildirirəm. Bilirəm ki, siz iş adamısınız, çox məşğulsunuz. Odur ki, sizə əlavə zəhmət vermək istəməzdim. Mən bir az dincəlib, şəhərlə tanış olmağa çıxacam. Piyada gəzməyi xoşlayıram.

– Səmimi deyirəm, sizə qulluq etməyi özümə

borc bilirəm. Hacı Salehin qonağı mənim də qonağımdır. Hacı Saleh bizim böyüyümüz, ağsaqqalımızdır. Lütfən, icazə verin sizə bacardığımız qədər qulluq göstərək. Əlbəttə, sizə sərbəst gəzmək üçün də şərait yaradacağıq. Şama qədər mən sizi narahat etməyəcəm. Şamı birlikdə edərik. Sizə yaxşı istirahət arzulayıram – deyib, Həsən ağa məndən ayrıldı.

Mən dincimi alıb, "Balaca Paris"in görüşünə tələsirdim. Məqsədim şəhəri piyada dolanmaq idi.

Deyəsən, qaldığım ev şəhərin ən hündür yeri idi. Burdan şəhərin hüdudları da aydın görünürdü. Şəhərin "balaca" olması aydın idi. Qalırdı "Paris" olmasını müəyyənləşdirmək.

Şəhərlə tanışlıq göstərdi ki, şəhər əsasən, birbirinə perpendikulyar yönəlmiş, kiçik mərkəzi meydanda kəsişən iki küçədən ibarətdir. Bu küçələrin hər iki tərəfini saysız-hesabsız qəlyanaltılar, kiçik kafelər, restoranlar, maqazinlər zəbt etmişdi. Təm-təraqına, bər-bəzəyinə, gözəlliyinə, reklamlarının parlaqlığına görə bu küçələri Parisin mərkəzi küçələri ilə müqayisə eləmək doğru olmazdı. Bəs elə isə, Çin, Hindistan, Tailand, Sinqapur, Malayziyada dəfələrlə olmuş, Avropanı qarış-qarış gəzmiş Hacı Saleh nəyə görə bu şəhəri məhz Parislə müqayisə eləyirdi? Odur ki, tələsik nəticə çıxarmayaq.

Bir saat olardı ki, şəhəri dolanırdım.

Şamın vaxtına hələ xeyli vardı. İranlıların şam yeməyinə gec başlamalarını nəzərə alaraq, yüngülvarı nahar eləmək məqsədilə kafelərdən birinə daxil olan kimi xidmətçi başımın üstünü kəsdirib ədəb-ərkanla:

– Ağa, xoş gəlmisiniz, nə buyuracaqsınız?

– Nəyiniz var?

– Ağa, yaxşı aşımız var, salatlar, kabablar, ürəyiniz nə istəyir.

– Hələlik, o aşdan gətirin, sonrasına baxarıq.

Xidmətçi iri bir çömçə götürüb böyük toy qazanına oxşar qazana yaxınlaşdı, bir çömçə duru nəsə kasaya tökdü və kasanı qarşıma qoydu.

– Bu nədir? – soruşuram.

– Aşdır da, ağa.

Xidmətçi nabələd olduğumu görüb, kiçik bir kasada nəsə gətirdi.

– Ağa, bu sarımsaq sousudur, aşa əlavə dad verir.

Xidmətçinin aş dediyi bizim dovğanı xatırladırdı. Lakin dovğadan fərqli olaraq göy-göyərtisi az idi. İnsafən, aş xoşuma gəldi. Bizim yağlı qovurmalı aşdan (plovdan) sonra desert kimi lap yerinə düşərdi.

Həsən ağa şam yeməyini öz evində təşkil eləmişdi. Şam yeməyində bizim lap səhər tezdən yeməyə adət etdiyimiz kəllə-paçanın da olması mənə qəribə gəlirdi.

Sübhanədə (səhər yeməyi) Sərein balı, qaymağının da dadına baxdıq – tərifə layiq idi.

Sən demə, Sərein öz saunaları ilə də məşhur imiş. Sovet hamamları qədər ucuz, amma qat-qat keyfiyyətli, əsl istirahət yeri.

Bir günümüz də belə keçdi. Həsən ağadan ayrılanda o, ertəsi günün proqramını elan etdi:

– İşlərimi sahmana salıb gələcəm. Səreinin görməli yerlərini sizə göstərməliyəm (deməli, Səreinin görməli yerlərini hələ görməmişəm). Sübhanəni mənsiz edərsiniz.

Maşını Həsən ağa özü sürürdü. Şəhərdən cəmi bir neçə km aralanmışdıq ki, gözlərimiz qarşısında füsunkar bir mənzərə açıldı. Mən Həsən ağadan maşını saxlamağı xahiş etdim. Bura yeganə yer idi ki, hər şeyə "yuxarıdan aşağı baxmağına" dəyərdi. Dərədən dağ çayının məlahətli səsi gəlirdi. Mərkəzi meydanda çoxsaylı turistlərin maşınlarını yerləşdirir, at sürmək, ailəvi gələnlərə ailəvi istirahət yerləri, mineral su qalereyasına, saunalara, kafe, restoranlara təşrif buyurmağı təklif edirdilər.

Burada bal satan dükanların sayı-hesabı yox idi. Bir satıcı balını elə məharətlə tərifləyirdi ki, Həsən ağa gülümsəyib:

– Görürsünüzmü, mən verdiyim balı (bunlar balı məndən alıb, üstünə qoyub satırlar) mənə elə tərifləyir ki, az qalıram bal alım.

Mən gördüklərimdən riqqətə gəlmişdim. Burada hər şey təbii, ətirli, gözəl idi. Bu yerləri görəndən sonra Hacı Salehin "Balaca Paris" müqayisəsinə haqq qazandırdım.

Paris gözəllik rəmzidir. Bu mənada Sərein Parisdir, ancaq həndəsi ölçülərinə görə "Balaca Parisdir".

ŞEF GƏLİR!

Yerli şirkətlərdən birinin prezidenti ilə görüşməli idim. Görüş vaxtına beş dəqiqə qalmış artıq qəbul otağında gözləyirdim. Lakin kabinet sahibi hələ gəlməmişdi. Qəbul otağına adət etdiyimiz, naz-qəmzəli, cavan, yaraşıqlı katibə əvəzinə pəhləvan cüssəli cavan oğlan sahiblik edirdi. O, çoxsaylı telefon zənglərinə cavab verir, ara vermədən, əlindən yerə qoymadığı ratsiya ilə danışır, göstərişlər verirdi.

Görüş vaxtı tamam olanda ratsiyaya səs gəldi. Mühafizəçi ayağa qalxıb danışırdı:

– Bəli, buradadır, baş üstə... baş üstə...

Ratsiyada səs kəsiləndən sonra o, yerinə əyləşdi və mənə müraciətlə:

– Şef sizi soruşurdu. Gecikdiyi üçün üzrxahlıq edirdi, tıxaca düşüblər, 10-15 dəqiqəyə gələrlər – deyib, çay, meyvə gətirmək üçün göstəriş verdi.

Aradan 10-15 dəqiqə keçmişdi ki, ratsiyaya həyəcan siqnalı daxil oldu: "Şef gəlir!"

Mühafizəçi cəld ayağa qalxdı. Qəbul otağında qoyulmuş monitoru işə saldı. Şefin hərəkət marşrutu monitorda aydın görünürdü. Lakin buna baxmayaraq şefin maşından düşməsi, binaya daxil olması, ikinci mərtəbəyə qalxması, dəhlizlə irəliləməsi və s. ratsiya ilə mühafizəçiyə xəbər verilirdi. Şef onu qarşılayanların bəzisi ilə başını tərpətməklə salamlaşır, bəziləri ilə əl verib görüşürdü (bu, monitorda görünürdü).

Təntənəli qarşılanma mərasimindən sonra şef qəbul otağında onu gözləyənləri başı ilə salamlayıb kabinetinə daxil oldu.

Bir neçə dəqiqədən sonra məni görüşə dəvət etdilər.

Demək olar ki, mənə lazım olan bütün məsələləri həll etmişdik. Lakin mənim üçün qaranlıq qalan bircə məsələ vardı – görəsən, şefin qarşılanma, yola salınma mərasimlərinin ssenarisi şefə məxsus idi, yoxsa şirkətin "yaradıcı kollektivinə"?

PSİXOLOJİ TESTLƏR

•••

Əgər görsəniz ki, çox da cavan olmayan bir adam pilləkənləri yüyürə-yüyürə qalxır və üstəlik, dodaqaltı şən bir melodiyanı zümzümə edir, şübhəsiz, bu adamın əhval-ruhiyyəsi yüksək, kefi kök, sağlamlığı qaydasındadır.

•••

Belə bir səhnəni gözünüz önünə gətirin.

Geniş bir stolun bir tərəfində pıqqa-pıqla qaynayan samovar, iki armudu büllur stəkan zərli nəlbəkiləri ilə, bəzəkli iki fincan dərin nəlbəkiləri ilə, ən azı iki cür mürəbbə, kəllə qənd və evdə bişirilmiş bir neçə cür şirniyyat məhsulları doldurulmuş qablar. O biri tərəfdə qoz, fındıq ləpələri sarı, qara kişmişlə, iki-üç cür meyvə, bıçaqlar da yanında.

Cavan ər-arvad nərd (məhz nərd, şahmat, dama, domino yaramır, kart da olmaz) oynayırlar. Azyaşlı uşaqları tərəfkeşliyi gizlətmədən çılğınlıqla azarkeşlik edirlər. Balaca Ülkər anasının, ondan iki yaş böyük Fərid isə atasının tərəfini saxlayır. Ata nərd daşlarını şaqqıltı ilə vurur. Zəri yuxarıdan atır (ehtimal ki, zər bir neçə dəfə yerə düşsün). Yeri gələndə "sabir", "dütdülü" (üç bir, qoşa iki əvəzinə) və s. ifadələr işlədilir.

Ana tez-tez soyumuş çayları dəyişdirir.

Gözünü zərdən çəkməyən Ülkər:

Ana, şeş-qoşa at – komandasını verir.

– Ay qızım, şeş-qoşa atsam bataram ki – ana etiraf etməli olur.

– Ata, onda sən şeş-qoşa at – bunu da deyən Fəriddir.

–Anan onda da batar ki – ata aydınlıq gətirir.

– Onda şeş-qoşa atmayın – uşaqlar qərar verirlər.

Əgər oyunun şirin yerində həyət qapısı (və ya ev qapısı) döyülürsə və gələn varsa, nərd stolun üstündən yığışdırılır. Bu nərd oyunu başqalarının baxması üçün deyil.

Şübhəsiz, söhbət mehriban Azərbaycan ailəsindən gedir.

YANAN PUTYOVKA

Xəbər gəldi ki, institutun həmkarlar təşkilatının sədri məni bərk axtarır. Zəng vurdum. Təcili yanına gəlməyi xahiş etdi.

– Mənim yalanla işim yoxdur, deyə bilmərəm ki, bu putyovkanı sənin üçün almışıq. Prorektor üçün gətirmişdik. O da, nədənsə, indi gedə bilmir. Gördüm putyovka "yanır", onu kiməsə verməliyəm. İlk ağlıma gələn sən oldun – deyib, sədr putyovkanı seyfdən çıxartdı (qiymətli kağız kimi seyfdə saxlayırmış) və davam elədi:

– Putyovka Bilgəh Kardioloji sanatoriyasınadır. Vaxtı sabahdan başlayır. Sanatoriyanın əsas binasında lüks otaq, telefon, televizor, soyuducu, sərinləşdirici də öz yerində. Pəncərəsi də dənizə baxır. Daha nə istəyirsən?! Get, ye-iç, kefələ!

Mən putyovkanı götürüb, sədrə minnətdarlığımı bildirdim.

Ertəsi gün, günortaya yaxın mən artıq sanatoriyanın qeydiyyat otağında idim. Xidmətçi qız putyovkamı alıb diqqətlə oxuyandan sonra:

– İndi nahar vaxtıdır, qorxuram sənədləşmə aparınca nahara gecikəsiniz. Yaxşısı budur ki, siz gedin nahar edin, sonra gələrsiniz sənədləşmə apararıq – deyib, yeməkxanaya talon verdi. Yeməkxanada talonu qəbul edib, oturacağım yeri müəyyənləşdirdilər.

Sanatoriyada ən xoşuma gələn yer yeməkxanadır, çünki məhz burada yeni tanışlar qazanırsan, ünsiyyət yaradırsan.

Stol arxasındakı yeni tanışlarım yaxşı təsir bağışlayırdılar. Lakin bunu verilən yeməklər haqqında demək mümkün deyildi. Mən qeyri-ixtiyari Yaltanın, Kislovodskinin, Pribaltika respublikalarının kurortlarındakı sanatoriyalarda verilən yeməklərin çeşidi, keyfiyyəti ilə burada verilənləri müqayisə edir və belə qənaətə gəlirdim ki, bu yeməklər insanlar üçün, sanatoriyanın adı üçün təhqirdir. Mənə qəribə gələn insanların bu təhqirə dözümlüyü idi. Onu da deyim ki, mən hər şeyə qulp qoyan, yekəxana adam deyiləm.

Nahardan (əgər belə demək mümkünsə) sonra mən yenidən qeydiyyat otağına gəldim.

– Hə, gəlmisiniz, gedək, qalacağınız yeri sizə göstərim – deyib, xidmətçi qız qabağa düşdü. Kotteclərdən birinə daxil olduq, otaqlardan birinin qapısını açıb içəri girdik. Otaqda üç çarpayı qoyulmuşdu. Otağı nəzəmiz saxlanılan duşxananın, tualetin üfunəti bürümüşdü.

– Bax, bu çarpayı sizinkidir – deyib, getmək istəyən xidmətçini saxladım.

– Mənim yerim əsas binada lüks otaqdır – dedim.

– O otaq tutulubdur.

– Putyovka əlimdə ola-ola o otağı kim tuta bilər?

– Müəllim, mən bilmirəm, mənə göstəriş verdilər ki, sizi bu otaqda yerləşdirim. Gülya xanıma müraciət edin. O sizi başa salar.

Gülya çox yaraşıqlı, lakin vulqar qadın təsiri bağışlayan bir xanım idi. O, şikayətimi dinləyib:

– Müəllim, sizin otağı elə bir adam tutub ki, onu oradan çıxara bilmərəm.

– Axı, başqasının otağını necə tutmaq olar?

– Olur da – deyib, Gülya xanım söhbəti bağladı.

Əlacsız qalıb baş həkimin qəbuluna getdim. Katibə nə məsələ üçün gəldiyimi soruşub:

– Belə məsələlərlə baş həkimin müavini məşğul olur, ona müraciət edin – dedi.

Baş həkimin müavininin qəbulunda xeyli adam var idi, baş həkim mühüm məsələlərin həllini müavininə tapşırmışdı.

Təəssüf ki, baş həkimin müavini də Gülya xanımın dediklərini təkrar etdi. Əlacsız qalıb hirsimi soyutmaq üçün sanatoriyanın çimərliyinə yollandım, sonra da evimizə qayıtdım.

Ertəsi gün mötəbər bir adam mənim məsələmi həll etmək xahişi ilə baş həkimin müavininə zəng etdi.

Baş həkimin müavininin qəbuluna yenidən getməli oldum. O:

– Müəllim, bu camaatı nə salmısınız mənim üstümə, yer vermişik də, daha bizdən nə istəyirsiniz. Orada qalanlar sizdən əskik adamlardır?

– Üfunət, antisanitariya baş alıb gedən bir otaqda qalırlarsa və sizin yaxanızdan yapışmırlarsa, deməli,

əskik adamlardır – deyib, kabineti tərk etdim.

Mənə qarşı yönəlmiş bu haqsızlıq, ümumiyyətlə sanatoriyada baş alıb gedən özbaşınalıq məni haldan çıxarmışdı. Odur ki, bu ovqatla o zaman üzdə olan "Aydınlıq" qəzetinə "Dil tapa bilməyəndə..." adlı felyeton fason bir yazı göndərdim.

Sanatoriyanın yalnız çimərliyindən istifadə edirdim. İlk nahar vaxtı bir stol arxasında oturduğumuz tanışlarımla da çimərlikdə görüşürdük. Həmin tanışlardan biri nəyə görə yeməkxanaya gəlmədiyimi soruşdu. Mən əhvalatı ona danışdım. O:

– Müəllim, xətrinizə dəyməsin, aciz adamsınız. Mən indiyə qədər üç yer dəyişmişəm.

– Nə təhər?

– Onun təhəri yoxdur ki... Baş həkimin müavininə pulunu ver, ürəyin hansı otağı istəyir seç.

– Axı mənim otağım var, putyovkada yazılıb, niyə pul verməliyəm?

– Pul verməyəndə də belə olur – o, söhbəti yekunlaşdırdı.

Bilgəhin təmiz havası, çimərliyi məni özünə çəkirdi. Odur ki, hər gün sanatoriyanın çimərliyində çimib evə qayıdırdım. Növbəti dəfə sanatoriyaya gələndə gördüm ki, burada ara qarışıb, məzhəb itib. Sən demə, mənim yazım "Aydınlıq" qəzetində dərc olunan günün ertəsi sanatoriyada yoxlamalar başlayıb. Yuxarı təşkilatlar elə bil mənim yazıma bənd imişlər.

Sanatoriyadakı tanışlar başıma yığışıb mənə minnətdarlıqlarını bildirdilər:

– Müəllim, çox sağ olun, Allah sizdən razı olsun. Bilirsiniz yeməklərin keyfiyyəti necə yaxşılaşıb, elə bil ev xörəyidir. Neçə cür meyvə verirlər. Sizin yazınız sanatoriyanı çalxalayıb. Yaxşı dərs verdiniz bu dələduzlara.

Evə yenicə qayıtmışdım ki, telefon zəng çaldı. Zəng eləyən müəllim yoldaşlardan biri idi:

– Xəlil müəllim, çox vacib məsələdir, sizi görməliyəm, özü də evinizin yaxınlığında dvoresin (Razin (Bakıxanov) mədəniyyət sarayını nəzərdə tutur) qabağındayam.

Yorğun olsam da, getməli idim.

Müəllim çox təlaşlı görünürdü. Yanında bir xanım da var idi. O, məni görən kimi yanındakı xanımı göstərib mətləbə keçdi:

– Xəlil müəllim, bu mənim həyat yoldaşımdır. Sanatoriyada sizin "müalicə həkiminiz"dir. İş elə gətirib ki, siz sanatoriyada qalmırsınız. Sizin qəzetdəki yazınızla bağlı sanatoriyada yoxlamalar başlayıb. İndi komissiya üzvləri ilişiblər həyat yoldaşıma ki, hanı sənin müalicən, təyin elədiyin prosedurlar?

– Mənim "müalicə həkimim"dən şikayətim yoxdur. Mənim işim sanatoriyanın dələduz rəhbərlərilədir.

– Onda xahiş eləyirəm, o dediklərinizi bizə yazılı verin – deyib, müəllim mənə qələm, kağız hazırladı. Mən dediklərimi yazılı təsdiqləyib kağızı onlara verdim. Sonradan öyrəndim ki, mənim o kağızımın faydası olub – həkim "töhmət"lə yaxasını qurtara bilib. Baş həkim, onun müavini, Gülya xanım və başqaları isə vəzifələrindən azad edilmişdilər.

Çimərlikdə günəş vannası qəbul edirdim. Sanatoriya tanışlarımdan biri mənə yaxınlaşdı və dedi ki, yoxlama aparanlardan biri mənimlə görüşmək istəyir. Sizi səhərdən axtarırlar, axır ki, gəlib məni tapıblar, mən də sizi tapdım.

Komissiya başçısı mənimlə çox mehriban danışırdı. O, söhbətimizin axırında:

– Hamının adından sizə göstərilən bu etinasızlığa görə üz istəyirəm – deyib, mənə bir açar verdi – bu sizin otağın açarıdır. Sizə yaxşı istirahət arzulayıram.

Çimərlikdən sonra bir az istirahət yerinə düşərdi. Odur ki, açarı götürüb otağıma getdim.

Otaq doğrudan da lüks idi. Əsl istirahət başlayırdı. Lakin elə bil qəlbim sınmışdı. Heç bir günahı olmayan sanatoriyadan da, lüks otaqdan da incimişdim. Oi gün də hədər getmişdi. "Yazan əlin var olsun", "qələminə qurban olum" deyənlərlə yanaşı, "ara qızışdıran", "aləmi bir-birinə qatan" deyib, məni barmaqla göstərənlər də vardı. Odur ki, otağımı bağlayıb qeydiyyat şöbəsinə gəldim. Açarı təhvil verib evə qayıtdım. Artıq çimərliyə də gedəsi olmadım.

Bax beləcə, ömrüm boyu iş yerimdən aldığım yeganə putyovka gözüm baxa-baxa çırta-çırtla "yandı" və özü ilə birlikdə o boyda sanatoriyanı da "yandırdı".

«ГЕРОИЧЕСКИЙ» ПОСТУПОК

5-ым поездом в вагоне «СВ» я ехал Москву. В купе был один. Когда наш поезд подъезжал к станции «Харьков» в мое купе вошел начальник поезда. Растерянным лицом он смотрел в мою сторону. Видно было, что он хочет сообщить что-то важное. Наконец, он начал:

– Халил муаллим, (так-как я часто ездил этим поездом, мы знали друг-друга) к вам у меня большая просьба. На станции «Харьков» в наш вагон сядут двое – высокопоставленные лица. Они хотят ехать вместе, в одном купе, но у меня нет свободных купе. Не могли бы вы перейти в одноместное купе в этом же вагоне?

– Пожалуйста, никаких проблем, сейчас же перейду – ответил я.

Услышав мой ответ он быстро схватил мою постель и сумку, перетащил их в мое новое купе, поправив постель, поблагодарив меня, ушел.

На станции «Харьков» в сопровождении начальника поезда двое зашли в наш вагон и поселились в моем бывшем купе.

Через минут 10-15 ко мне пришел начальник поезда и сказал:

– Халил муаллим, я рассказал этим товарищам, что вы им уступили свое место, перешли в другое купе. Они так были тронуты вашим поступком, что хотят познакомиться с вами.

Пришлось согласиться. Они меня встречали стоя. Несмотря на мои возражения, меня посадили у окна.

Они были сравнительно молодые, симпатичные, бодрые, энергичные люди. Оказалось, что едут в Москву, на важное совещание, на котором на десять часов утра назначены их доклады.

Они были в восторге от моего поступка, не знали как отблагодарить меня за мой поступок.

Разумеется, я старался свести к минимуму их восторг, считая это поступком нормального человека. Но, чтобы знать цену своего поступка, я им задал вопрос:

– А вы разве не перешли бы в другое купе, чтобы создать удобство для других?

– Возможно, и не перешли бы – откровенно признались они и продолжили: знаете, вы (наверное, имели в виду азербайджанцев) по-другому воспитаны, за это мы вас уважаем.

Мы обменялись адресами, телефонами, фразами, как в таких случаях произносят: «Будете в Харькове...», «Будете в Баку...».

Чего только не было на столе: несколько видов сала, колбасы, вареные курицы, от одного названия спиртных можно было загореть – горилка, перцовка.

Посидев минут 20, я покинул эту веселую компанию. А компания продолжала веселиться допоздна.

К сожалению, не осталось ни следа от этих солидных, ответственных лиц. Противно было видеть их пьяную морду. Я с ужасом думал, как эти высокопоставленные лица будут выглядеть утром на ответственном совещании.

Какого же было мое удивление, покидая вагон, я увидел тех же свежевыбритых, энергичных, бодрых высокопоставленных лиц. Русские в таких случаях говорят: они выглядели как огурчики.

Xəlil MƏCİDOĞLU
E-mail: khalil_majid@mail.ru

PROZA

İLHAM TUMAS

ƏXLAQSIZ VƏ QÜDRƏTLİ RASPUTİN HAQQINDA HƏR ŞEY...

sənədli hekayə



Az qala bütün heyəti ilə ayağa qaldırılmış Peterburq polisi 1916-cı il dekabrın 17-də Kiçik Neva çayından tanınmaz hala salınmış kişi cəsədi tapdı. Xəbər Çariçaya çatanda saraydan qətlin səbəbkarlarının qısa müddətə tapılması əmri gəldi...

Bu olaydan təxminən 1 il sonrasa taxt-tacdan əl götürmüş imperator II Nikolay nəzarət altında öz ailəsi ilə birlikdə paroxodla Tur çayı boyu Sibirin Tobolsk şəhərinə aparılırdı. Şahidlərdən birinin yazdığına görə, paroxod Pokrovsk kəndinin yaxınlığından keçəndə Çariça sahilboyu sıralanmış sadə kənd evlərinə, hündür təpədəki kilsənin bəzəkli tağına kədərlə baxaraq deyir: "Hər şey onun söylədiyi kimi oldu...".

Bütün Rusiya İmperiyası və 300 illik hakimiyyətini qeyb edən Romanovlar sülaləsi üçün ağır olan həmin günlərdə İmperatriçənin xatırladığı bu adam 1916-cı il şaxtalı dekabr gecəsi öldürülərək çaya atılmış Qriqori Rasputin idi. O, məhbus Çariçanın kədərlə baxdığı kənddə doğulmuş və buradan da Peterburqun ali məclislərinə yol tapmışdı...

YAŞI BİLİNMƏYƏN "QOCA"

Onun həyatının böyük hissəsi sirr pərdəsi altındadır. Bu pərdəni qaldırmağa inqilabdan sonra çar rejiminin fəaliyyətini araşdıran Fövqəladə Komissiya da nail olmamışdı. Komissiyaya ifadə verən həmkəndliləri Rasputinin dəqiq doğum tarixi, məşhurlaşana qədərki həyatı barədə tutarlı bir şey bilmirdilər. Ona görə də, Qriqori Rasputinin həyatından danışarkən həmin dövrün ideoloji təbliğatı altında tərtib olunmuş materiallara da müraciət eləməli oluruq.

Əvvəlcə Rusiya tarixinin ən maraqlı simalarından olan bu adamın soyadının mənşəyinə nəzər salaq. Bəzi tədqiqatçılar "Rasputin" ifadəsinə "rasput", yəni "yolayrıcı" kimi şərh vermək istəsələr də, rus dilinin izahlı lüğəti bu sözün məhz "mənəviyyatsız", "pozğun" anlamına gəldiyini göstərir. Nəslin bu soyadı hansı vaxtdan daşıması isə təbii ki, tarixin qaranlıq səhifələrinə aid olan məsələdir. Bir məqamı da qeyd edək ki, ata Rasputinin ailəsində Qriqoriyə qədər doğulan oğlan uşaqlarının hamısı ölürmüş. Tarixin özünəməxsus ironiyasıdır ki, Hitler, Stalin kimi şər dahilərinin ailələrində də məhz belə olub. Sanki Tanrı Yer üzünü bu ailələrdə doğulan oğlan uşaqlarından qorumaq istəyirmiş...

Rasputinin şəxsiyyəti kimi doğum tarixi də uzun müddət mübahisə mövzusu olub. Sanki onun özü də bütün həyatı boyu doğum tarixinin dolaşığa düşməsinə çalışıb. Məsələn, 1907-ci ildə Rasputin doğum ilinə 4 il artıraraq yazır: "Mənim 42 yaşım var". Yeddi ildən sonra, yəni 1914-cı ildəsə arxayınlıqla deyir: "İndi 50 yaşın içindəyəm". Aradan cəmi bir il keçəndən sonrasa artıq hər yerdə özünü 60 yaşlı qoca kimi

qələmə verir.

Yaşartırma məsələsinə belə incəliklə diqqət verməyimiz təsadüfi deyil. Məsələ bundadır ki, qocalıq institutu Rusiya kilsəsinin ayrılmaz bir atributu olub. Keçmiş dövrlərdə asket həyat keçirən rahibləri "qoca" adlandırırdılar. 19-cu əsrdəsə artıq Tanrı tərəfindən seçilmiş xüsusi qabiliyyətli adamlara da "qoca" deyilirdi. Hamı inanırdı ki, Yaradan onlara öncəgörüm və loğmanlıq bacarığı verib. Bu baxımdan, Rasputinin yaşını artırmağa çalışmasını anlamaq olar. Bir də doğrudan da, onun sifət quruluşu, vaxtından əvvəl qocalmış qırışlı üzü, uzun saçı və saqqalı hamı tərəfindən "qoca" adlandırılmasına rəvac verirdi. Onu da nəzərə alaq ki, gələcəkdə Peterburqun kübar məclislərində, hətta Rusiya İmperatorunun sarayında belə bu sadə kəndli hamı tərəfindən hörmət və ehtiramla "qoca" adlandırılacaqdı...

QARANLIQ KEÇMİŞ

Qriqori Yefimoviç Rasputin 1869-cu il yanvarın 10-da Tobolsk quberniyası Tümen qəzasının Pokrovsk kəndində anadan olub. Xristianlıqda bu tarix müqəddəs Qriqori gününə təsadüf etdiyindən, uşağa da Qriqori adı verirlər.



Sonralar Qriqori yeniyetməlik dövrü haqqında yazacaqdı: "Mən həyatı anlamaq istəyirdim, beynimdə çoxlu suallar vardı, ancaq heç birinə cavab tapa bilmirdim. Onda içməyə başladım".

Əslində, içmək o dövrkü rus kəndlisinə xas xüsusiyyət olduğundan, burada qeyri-adi nəsə axtarmaq da mənasızdı. Ancaq özünün "Həyatım" adlı xatirələrində yazdığı kimi, onun fərqi bütün bunlara baxmayaraq, həmişə axtarışda olmağında və bəşər övladının xilas yolu barədə düşüncələrə dalmağında idi.

Beləcə, o, amansız Sibir həyatının bütün çətinliklərinə dözməklə bərabər, həm də Tanrı haqda düşüncələrlə ömür keçirməkdə davam edir. Həmkəndliləri bu qeyri-adi "Tanrı adamı"nın cavanlıqda dəfələrlə oğurluq etdiyini, sərxoş halda dava saldığını xatırlayırlar. Həqiqətən, Rasputinin işiylə bağlı materiallara nəzər salanda, onun 19-cu əsrin Sibir kəndlisinə xas yaşam tərzi keçirdiyinin şahidi oluruq. Qriqori 18 yaşında "Yuxarı Tur" adlanan ərazidəki monastırı ziyarət edir. Bir ildən sonra doğulduğu kəndə qayıdır və özündən iki yaş böyük Praskovya Fyodorovna ilə evlənir. Onların üç uşaqları doğulur - iki qız, bir oğlan. Rasputinin bəxtindən Praskovya nümunəvi və zəhmətsevər ana olur. Belə qadın isə Qriqori üçün lap göydəndüşmə idi. Çünki evləndikdən sonra müqəddəs yerləri daha çox ziyarət eləməyə başladığından, ev işləriylə yanaşı əkin-biçinlə də arvadı məşğul olurdu.

SİRR BAŞLAYIR

"Mən bu dünyada ancaq 28 yaşa qədər yaşadım. Sonra yerdənkənar həyatım başladı..." Rasputinin etiraflarındandır. Həmin dövrdən başlayaraq o, Tur çayının sahili boyu gəzərək, tənha həyat keçirməyə başlayır. "Təcrübəli qəribin yaşantıları"nda yazırdı: "Təbiət mənə Tanrını sevməyi və onunla söhbət eləməyi öyrətdi". Beləcə o, Kiyevin, Moskvanın, Peterburqun monastırlarında olur, payi-piyada bir Sibir kəndindən o biri kəndə adlayır, meşələrdə, düzlərdə gecələyir. Və günlərin birində Pokrovska bambaşqa bir adam kimi qayıdır. İçkini, tütünü atır, ət və şirin yeməklərdən imtina eləyir. Kəndlilər dünənki sərxoş dələduzu ələ salsalar da, tənhalıqda keçirdiyi illərdən sonra özünü açıq-aydın "Tanrı adamı" adlandırır.

Ancaq yavaş-yavaş ona inanmağa da başlayırlar. Bir dəfə quraqlıqdan əziyyət çəkən kəndlilərin yarızarafat, yarıciddi şəkildə "qoca, bəlkə yağış yağdırasan" atmacasından sonra, Rasputin əlindəki beli yerə vurur və deyir: "Sabahı gözləyin". Səhərisi gün isə yağış yağır. Buna oxşar olayların bir neçə dəfə təkrarlanması kifayət edirdi ki, o dövrün rus kəndlisi bu adamın həqiqətən, "Tanrının seçdiyi şəxs" olduğuna inansın...

Ümumiyyətlə, həyatının cavanlıq dönəmi haqda özünün xeyli yazıları olsa da, rus pravoslav kilsəsinə, həmin dövrlər Rusiyada formalaşmış dini baxışlara nəzər salanda, Rasputində formalaşmış nəzəri fikirləri heç də bir fərdin gəldiyi nəticələr kimi qəbul etmək olmaz. Məsələnin kökü daha dərində, 11-ci əsrin Rusiyasında hökm sürən dini vəziyyətin mahiyyətindədir.

XLISTÇI RASPUTİN

Hələ 10-cu əsrdə xristianlığı qəbul etmiş Rusiyada o dövrlər yenə bütpərəstliyin xeyli əlamətləri qalmaqda idi. Tarixi salnamələr bütpərəstliyə uyğun bu cür ifadələrlə doludur. Məsələn, təxminən "müqəddəs Vasilinin kilsəsi Perun adlı tanrının bütü olan yerdə tikilib" kimi...

Sibirdə isə pravoslavlıqla bütpərəstlik minillər boyu xalqın təfəkküründə və həyat tərzində dərin kök salmışdı. Təsadüfi deyil ki, çar xüsusi xidmət orqanlarının hesabatlarında bu bölgədə xalq loğmanlarının və cadugərlərin çox olması xüsusilə vurğulanırdı. Beləcə, Ural dağlarının ətəklərində və keçilməz Sibir ormanlarında rəsmi kilsəylə yanaşı, həmişə gizli "xalq kilsəsi" də fəaliyyət göstərmişdi. Bu sırada 17-ci əsrdə yaranmış xlıstçılıq təriqəti daha qabarıq özünü göstərir. Xlıstçılıq ideyasına görə, insan bütün həyatı boyu özünün Müqəddəs Ruhla qovuşmasına çalışmalıdır. Təbii ki, bu qovuşmanın yolu asketizmdən keçirdi. Ancaq burada digər təriqətlər üçün xarakterik olmayan bir cəhət də var. Tanınmış tədqiqatçı Radzinski yazır: "Xlıstlar günahlardan təmizlənmənin yolunu günahlardan keçməkdə görürdülər. Onların özünəməxsus tövbələri üçün xüsusi məclislər təşkil olunurdu. Bu məclislərdə qocalı-cavanlı hamı günaha batmaqla günahlardan təmizləndiklərini güman edirdilər. Xlıstlara görə, günahlardan qorxmamaq ən böyük şücaətdir".

Təbii ki, kilsə xlıstlarla həmişə mübarizə aparıb. Rəsmi statistikaya görə, bu cərəyanın daha sürətlə yayılmağa başladığı 18-ci əsrin ortalarında 78 nəfər edam olunmuş, yüzlərlə xlıst uzaq monastırlara göndərilmişdi. Ancaq görülən tədbirlər təriqətin yayılmasının qarşısını ala bilmədi və 19-cu əsrdən başlayaraq sadə kəndlilərin bura axını gücləndi. Zaman-zaman Rasputinin də Rusiyada qadağan olunmuş xlıstlara mənsub olduğu barədə söz-söhbət gəzirdi. Maraqlıdır ki, həm ilkin vaxtlarda, həm də məşhurlaşandan sonra onun əməlləri, deyimləri xlıstçılığa uyğun gəlsə də, dəfələrlə aparılan araşdırmalar bunu sübuta yetirə bilməyib. Ancaq həyatının sonuna qədər yenə Rasputin qeyri-rəsmi şəkildə xlıstlara aid edildi.

Rəsmi kilsəyə gəldikdə, o dövrdə Rusiyada meydan sulayan müxtəlif təriqətlərin, gizli məzhəblərin fonunda o, son dərəcə sönük görünürdü. Hələ Böyük Pyotrun dini vəziyyətə nəzarət eləmək məqsədilə yaratdığı Müqəddəs Sinod da bu işin öhdəsindən gələ bilmirdi. Sabiq baş nazir Vitte xatirələrində yazır: "İndi mənəvi sıxıntı çəkənlər rəsmi kilsəyə deyil, qadağan olunmuş dini sektalara, maddi güzəranından bezənlər isə bolşeviklərin gizli təşkilatlarına üz tuturlar".

Bəli, yüksək saray əyanları, imperiyanı idarə eləyənlər özləri də başa düşürdülər ki, zəif kilsə çətin anlarında monarxiyaya dayaq dura bilməyəcək.

"ƏZABKEŞ İOHAN" VƏ FIRILDAQÇI FİLİPP

Fransız səfiri Moris Paleoloqun xatirələrindən oxuyuruq: "Bir dəfə İmperator baş nazir Stolıpindən soruşdu: "Sən bilirsənmi mən nə zaman doğulmuşam?" "Əlbəttə, Ali-həzrətləri, mayın 6-da" deyə baş nazir cavab verdi. Nikolay kədərlə dedi: "Bu gün Əzabkeş İohan günüdür. Hiss edirəm ki, məni çox çətin

sınaqlar gözləyir".

Bu baxımdan, imperatriçənin 1915-ci ildə ərinə ünvanladığı məktub diqqəti daha çox cəlb edir: "Mən sənin kədərini başa düşürəm, əziz dost. Axı, sən Əzabkeş İohan günündə anadan olmusan..."

Bəli, bütün Rusiya cəmiyyətini ağuşuna almış dini sarsıntı imperator ailəsindən yan ötməmişdi. Rusiyanın ən ali ailəsi də şəxsi həyatlarında və idarəetmədə, əli hər yerdən üzülmüş sadə rus adamları kimi rəsmi kilsəyə deyil, gizli qüvvələrə, maqlara, görücülərə daha çox inanırdılar. Proses hələ Rasputinin Peterburqa ayaq basmadığı illərdən başlamışdı. Bu sırada parisli Filippin adı diqqəti daha çox çəkir. Məsələ bundadır ki, imperatriçə bir-birinin ardınca üç qız doğduğundan, gələcək varis haqqında söz-söhbətlər səngimək bilmirdi. Onda çar ailəsinə yaxın olan iki bacı - Milisiya və Anastasiya İmperatriçəyə Fransadan məşhur görücü Filippin köməyindən yararlanmağı məsləhət görürlər. 1900-cü ildə Filipp çağırılır və çariça Aleksandra Fyodorovna ilə birinci görüşdəcə onun ürəyinə girə bilir. Özünün məsləhətləri və moizələri ilə Filipp qısa müddətə çariça üçün "Tanrı adamı"na çevrilir. Bütün saray bir az da istehza ilə fransız maqın İmperator ailəsinə nə verəcəyini gözləyirdi. Dövlət Dumasının üzvü Polovsev kinayə ilə yazırdı: "Bəli, sən demə, bu fransız fırıldaqçısının köməyi ilə İmperatriçəmiz qız yox, oğlan doğacaqmış..."

1901-ci il iyunun 5-də çariça yenidən doğur. Ancaq bu dəfə də oğlan yox, qız. Buna baxmayaraq, inam cəhətdən möhkəm iradə sahibi olan imperatriçə yenə Filippin möcüzəsinə inanmaqda davam edir. Hətta rus polisinin Filippin fırıldaqçı olması barədə Parisdən aldığı məlumatların imperatora çatdırılması da nəticəsiz qalır. Aleksandra Fyodorovna "Tanrı adamı"nı qovmamağı ərindən xahiş edir. Fransız maqın çar ailəsi üzərindəki hökmranlığı bütün sarayı narahat etməyə başlayır. Romanovlar ailəsi təhlükəli maqın saraydan uzaqlaşdırılması üçün böyük knyaz Nikolay Vasilyeviçi Lev Tolstoyun yanına göndərirlər ki, bəlkə onun məktubu İmperatora təsir edə. Xeyli dilə tutulduqdan sonra Tolstoy çara dəhşətli siyasi kataklizmlərin gözlənildiyi barədə məktub göndərməyə razı olur. Böyük yazıçı onu xəbərdar edir: "Əziz qardaşım! Mən Sizə çar kimi deyil, bir İnsan, bir Qardaş kimi müraciət edirəm. Rusiyanın böyük hissəsi gücləndirilmiş mühafizə altındadır. Açıq və məxfi polis ordusu artırılır, həbsxanalar və sürgün yerləri doldurulur, aclıq adi hala çevrilib. Sizi, bizi, bütün Rusiyanı dəhşətli illər gözləyir..."

Bu məktubdan sonra da Filipp yenə sarayda yaşamaqda davam edir. Hətta mövqeləri güclənir, artıq çariça söhbətlərində və məktublarında onu "bizim dostumuz" adlandırır. Nəhayət, inam qalib gəlir, 1904-cü ildə söz-söhbətlərə son qoyulur. Çariça Rusiyaya varis bəxş edir: Vəliəhd Aleksey Nikolayeviç anadan olur. Çar ailəsinin "bizim dost adlandırdığı" Filipp Fransaya qayıdır. Ancaq heç kəs bilmirdi ki, uzaq Sibirdən Peterburqa yeni bir "Tanrı adamı", bu dəfə sadə rus kəndlisi Qriqori Yefimoviç Rasputin gəlir...

SİYASİ RUSİYA

Deyəsən, yaza-yaza biz də o dövrün dini aurasının təsiri altına düşdük. Çünki Rasputinin peyda olmasının səbəblərini yalnız dində axtarmaq, sosial-siyasi motivləri görməmək çariçanın kor inamına bənzəyər. Ona görə də, "qəhrəmanımızın" Peterburq həyatına keçməzdən əvvəl ötən əsrin ilk onilliyində Rusiyada yaşanan siyasi proseslərə qısa da olsa, nəzər salaq.

1905-ci ildə Rusiyada inqilabın ilk dalğası yatırıldı. İnqilabı boğmaq mümkün olsa da, zahiri dinclik və sakitlik yerini gizli təbliğata vermişdi. Bu təbliğat dayanmadan çar hakimiyyətinin dayaqlarını sarsıtmaqda idi.

1905-ci ilin "torpaq və iradə" şüarı kəndlilər arasında uzun illərdən bəri yatıb qalmış kor instinktin yenidən dirçəlişinə səbəb olmuşdu. Ziyalı təbəqəsi, sollar sosialist yönümlü demokratik respublikaya üstünlük verirdilərsə, mühafizəkarlığa meyl eləyən çevrələr daha çox parlamentarizmə tərəfdar idilər. Bütün bunların fövqündə dayanan varlı burjuaziya isə öz növbəsində hakimiyyətə və ölkədə siyasi nüfuzunu genişləndirməyə can atırdı. Peterburqun, Moskvanın əksər ali məktəblərində aparılan siyasi müzakirələrdə

ölkənin yeni bir inqilaba ehtiyac duyması fikri tez-tez səslənirdi. Həm cavan, həm də yaşlı nəslin nümayəndələri Rusiyada sosial bərabərliyin və ümumi ictimai ədalətin bərpasının vacibliyindən danışırdılar.

Bir az xəyalpərəst, bir az da sadəlövh rus ziyalısı isə inqilabı artıq bir dini ideya kimi görür və arzulayırdı. O zamanlar bütün rus mühitində hökm sürən bu əhval-ruhiyyə dövrün ədəbiyyatında və publisistikasında əks olunmuşdu. Dövrün savadlı və hörmətli adamları Rusiyanın dövlət həyatından heç nə anlamadıqlarını açıq-aydın şəkildə büruzə verdilər.

Bunlarla yanaşı I Dünya Müharibəsinin başlanması bütün Rusiya cəmiyyətini dəhşətə gətirdi. Məsələ bundaydı ki, müharibənin başlanmasına qədər ölkədə sənayenin və kənd təsərrüfatının bütün sahələrində böyük uğurlar əldə olunmaqda idi. Ona görə də, böyük itkilərlə başa çatan Rus-Yapon savaşından sonra imperiyanın yenidən sonu görünməz müharibəyə sürüklənməsi cəmiyyətin bütün sahələrində şok effekti yaratmışdı. Bir tərəfdən ölkədə baş verənlər, digər tərəfdən də çar ailəsi daxilindəki problemlər və vəliəhdin səhhəti sanki Rasputinin Peterburqa gəlişini, yüksək dairələr tərəfindən qəbul olunmasını zəruri edirdi.

Ali məclislərə gedən yol



Peterburqa gələndə onun 33 yaşı vardı. Bəlkə də Rasputinin İsa yaşında arzularının arxasınca paytaxta gəlməsi və burada şöhrət tapması təsadüfi deyil. Uzun illər keçirdiyi asketik həyat tərzi özünü göstərirdi. Yaşından xeyli qoca görünən Qriqori insanları ilk baxışda tanıyır, onların həyəcanlarını duyur, hipnotik baxışlarıyla hamıda heyrət və qorxu hissi aşılayırdı. Ancaq özünün dediyinə görə, paytaxta arzusunda olduğu kilsəni tikmək üçün ianə toplamaq məqsədilə gəlsə də, nədənsə birbaşa İlahiyyat Akademiyasının rektoru, yepiskop Sergeyin yanına gedir. Gözəl nitq qabiliyyətinə malik sadə Sibir kəndlisi yepiskopu valeh edir. Ardından onun ali Peterburq dairələri ilə tanışlığı başlayır. Bir neçə il sonra isə artıq bütün Peterburq bu qeyri-adi adamın möcüzəli qabiliyyətləri haqqında danışmağa başlayır.

O dövrdə çar ailəsinə yaxın olan mistik Feofan yazır: "Rus-Yapon savaşı vaxtı admiral Rojdestvenskinin başçılığı ilə eskadra dənizə çıxmışdı. Söhbətlərin birində Rasputindən soruşduq: "Sizcə, yaponlarla döyüş uğurlu olacaqmı?"

Rasputin cavab verdi: "Bütün varlığımla hiss edirəm ki, batacaq".

Doğrudan da, az keçmir Çusime yaxınlığında döyüşlərdə bütün eskadra sulara qərq olur...

Əlbəttə, Rasputinin yüksək kübar məclislərinə yolu heç hamar olmayıb. Saya gəlməz intriqaları, maneələri dəf etmək üçün loğmanlıq və görücülük, hətta nüfuzedici baxışlar və görünüş kifayət deyildi. Burada lazımi məqamda hiylə, gərəkən məqamda sadəlövhlük lazımıydı. Rasputin bunların hamısının öhdəsindən bacarıqla gələ bildi.

Beləliklə, Rasputin Feofanın vasitəsilə Çariçanın yaxın rəfiqələri olan Anastasiya və Milisiya ilə tanış olur. Bu tanışlıq çar ailəsi üçün xüsusilə ağır olan 1905-ci ilə təsadüf edirdi. "Qanlı bazar günü" baş vermiş-

di, vəliəhd ağır xəstə idi. Bütün paytaxtı fəhlə tətili başına götürmüşdü. Elə həmin ildə də II Nikolay 300 illik Romanovlar sülaləsi və bütün Rusiya imperiyasının həyatını dəyişəcək Konstitusiya ya imza atır. Məhz belə ağır dövrdə Milisiya "Qriqori qardaşın" İmperatriçə ilə tanışlığına məqam yetişdiyini anlayır.

Onun Rasputin haqqında söhbətləri çariçanın ürəyincə olur. Doğrudan da, Aleksandra Fyodorovnanın imperiya üçün oğul doğmağa vəsilə olmuş Filippdən sonra bu çətin günlərdə yeni bir "Tanrı adamı"na ehtiyacı vardı. Onu da xatırlasaq ki, parisli Filipp Peterburqu tərk eləyəndə "mən başqa obrazda təcəlla edəcəyəm" demişdi, o zaman həssas qəlbli, əsəbi zəif olan çariçanın bu tapıntıdan nə qədər sevindiyini təsəvvür eləməmək mümkün deyil. Bəli, onun dörd qızdan sonra oğul doğması üçün Tanrıya dualar etmiş xeyirxah Filippdən sonra sadə rus kəndlisi Qriqori Rasputinə, yaxud özünün adlandırdığı kimi "qocaya" böyük ehtiyacı vardı...

ÇAR AİLƏSİNİN SEVİMLİSİ

II Nikolay gündəliyində yazır: "Oktyabrın 16-da Milisiya bizi Tobolsk quberniyasından olan kəndli Qriqori Rasputinlə tanış elədi. Onun söhbətləri maraqlı, maraqlı olduğu qədər də cəzbedici idi".

Çarın devrilməsindən sonra yaradılmış Fövqəladə Komissiya müstəntiqlərinin suallarına cavab verən Feofan deyir: "Rasputindən eşitdim ki, birinci görüş sabiq çariçada yaxşı təəssüratlar oyadıb".

Sonrakı hadisələr onun çar ailəsində apardığı söhbətlərin məzmununun nədən ibarət olmasını ehtimal etməyə əsas verir. Rasputin hemofiliyadan əziyyət çəkən şahzadənin vəziyyəti ilə maraqlanır. Məlum olanı budur ki, onu xəstə uşağın yanına aparıblar. Rasputin bütün qabiliyyətini işə salıb, naxoş vəliəhdin özünü yaxşı hiss etməsinə nail olur. Bu görüş barədə imperator gündəliyində yazır: "Möcüzə, möcüzə! O, səhərisi gün əvvəlki günlərdən fərqli olaraq xeyli gümrah idi".

Doğrudan da, illər keçəcək və Rasputin dəfələrlə yeniyetmə Alekseyi ölümün pəncəsindən qurtaracaqdı. Görəsən nə baş vermişdi? Bəlkə bu sadə Sibir kəndlisi şaman dualarının hesabına şahzadənin səhhətinə müsbət təsir göstərə bilmişdi? Bu haqda xeyli düşünmək və müzakirə açmaq mümkündür. Ancaq etiraf eləmək lazımdır ki, xəstə şahzadənin anası Aleksandra Fyodorovna ana kimi bu haqda nə düşünə, nə də şübhə eləyə bilərdi. Ona yalnız inanmaq qalırdı. Və o inanırdı...

Bəli, çariça qətiyyən şübhə etmirdi ki, Rasputin Rusiyanı və Romanovlar sülaləsini qorumaq üçün Tanrı tərəfindən onlara göndərilmiş elçidir...

Çar ailəsindən sonra Nikolayın məsləhəti ilə baş nazir Stolıpin də "Qriqori qardaşı" qəbul edir və deyilənlərə görə, Rasputin onun xəstə qızının sağalmasına kömək edir.

Beləliklə, Rasputinin Peterburq yürüşü xeyirli oldu. Bundan sonra o, dəfələrlə xəstə vəliəhdi real ölümdən xilas etdi, barəsində yazılanlara, deyilənlərə baxmayaraq, çar ailəsinin ən yaxın adamı olaraq qaldı. Artıq Rasputin saraya özü gəlmirdi, onu çağırırdılar...

"Qriqori qardaş"ın "vəliəhd 17 yaşına çatan kimi xəstəliyi sağalacaq", yaxud "mən sağ olana qədər Romanovlar sülaləsinə xətər toxunmayacaq" kimi sevindirici və qorxulu açıqlamaları onun çar ailəsi tərəfindən daha çox himayə edilməsinə səbəb olurdu. Hətta sonralar Rasputinin qızı Mariya da yazırdı ki, atası dəfələrlə onun yanında "Nikolaya demişəm ki, mənim ölümüm, sənin ölümün deməkdir" söyləyib.

Ancaq il ili əvəzlədikcə "Tanrı adamı" ondan narazı olan dövlət məmurlarının nəzarəti altına keçir. Rasputinin artan nüfuzu çara yaxın dairələri ciddi narahat etməyə başlamışdı. Və bu narahatlığa Rasputinin Peterburqda keçirdiyi pozğun həyat tərzi barədə sənədlərdəki faktları və şahidlərin söylədiklərini də əlavə eləmək lazımdır.

(ardı gələn nömrədə)

Uşaq dünyası

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi

ƏLİFBA BAYRAMI – "HƏR BİRİMİZ BİR ÇİÇƏK"



Şagirdlərim və mən bu bayramı böyük səbrsizlik və həyəcanla gözləyirdik. Çünki bu bizim ilk "bilik bayramımız" olacaqdı. İl boyu çəkdiyimiz əziyyətin bəhrəsini görürük – şagirdlərim sərbəst yazıb-oxumağı öyrənmişlər.

Nəhayət, gözlənilən an gəlib çatdı. Mən də onlar qədər həyəcanlıyam. Axı, bu tədris ilini birlikdə yaşamış, sevinci və kədəri birlikdə bölüşmüş, doğmalaşmışıq.

Bilik gününə həsr olunmuş "Hər birimiz bir çiçək" adlı bayram şənliyi may ayının 7-də "Dünya" məktəbinin konsert zalında başladı.

Səhnəyə çıxan ikinci və üçüncü siniflərin şagirdləri "Günəş üzlü balalar" mahnısı ilə bayramı açaraq, birinciləri salamladılar. Daha sonra hazırlıq sinfinin körpələri "Göyərçinik biz" adlı mahnı töhfələrini də tamaşaçılara təqdim etdilər.

Budur, bir-birindən gözəl, yaraşıqlı, lakin bir təlaş işində olan I a, I b, I c siniflərinin şagirdləri ilk dəfə "böyük" səhnədədirlər. Uşaqların gözləri geniş açılmış, dodaqları isə tərpənir – sanki onlar deyəcəkləri sözləri unudacaqlarından qorxaraq, təkrar edirdilər. Onların bu halını görüb təsirlənməmək olmazdı. Zalda







əyləşən valideynlər də həyəcanlı və gərgin olduqlarını gizlədə bilmirdilər. Axı, valideyn kimi çoxları üçün bu ilk "bilik bayramı"dır.

"Görəsən oğlum (qızım) necə çıxış edəcək? Həyəcandan çaşmayacaq ki?" Mənə elə gəlirdi ki, hər bir valideyn özünü uşağının yerində hiss edir, ona dəstək olmaq istəyirdi. Mən isə müəllim kimi uşaqlara baxıb öz-özümə deyirdim: "uşaqlar, cəsarətli olun, siz bacaracaqsınız. Bilik məkanına, məktəb həyatına atdığınız ilk addımınız uğurlu olsun!"

Nəhayət, birincilərin iştirakı ilə tamaşa başladı. "Cırtdan", "Şəngülüm, Şüngülüm, Məngülüm", "Turp nağılı", "Göyçək Fatma", "Çəkməli pişik" nağıllarının müsbət və mənfi qəhrəmanlarının sərgüzəştləri tamaşaya xüsusi rəng qatdı. Tamaşada "mənfi" qəhrəmanların "Ana dili" dərsliyini "oğurlayıb", birincilərin bayramını pozmaq istəyi boşa çıxdı. Həmişə olduğu kimi, sonluq "xeyir"in "şər"ə qalib gəlməsi ilə qurtardı. Tamaşa alqışlarla qarşılandı. Nağıl bitdikdən sonra əsl şənlik başlandı.

I a sinif şagirdləri "Kovboy" və "Azərbaycan", I b sinif şagirdləri "İdman" və "Şənlik", I c sinif şagirdləri "Ördəklər" və "Bayram" rəqslərini və ingilis dilində mahnılarını böyük məharətlə ifa edərək, qonaqların rəğbətini qazandılar. III b sinfi "Bulaq başında" rəqsi ilə birinciləri təbrik etdi. Konsert proqramının sonunda I a, I b, I c siniflərinin şagirdlərindən ibarət xor "Dünya məktəbi" mahnısını böyük ruh yüksəkliyi ilə ifa etdi və tamaşaçıların sürəkli alqışlarını qazandı. Onu da qeyd etməliyəm ki, uşaqların tədbirin əvvəlində keçirdikləri sıxıntıdan əsər-əlamət qalmamışdı. Onlar artıq səhnədə çox sərbəst hərəkət edərək həm özləri əylənir, həm də tamaşaçıları əyləndirirdilər.

Sonra bayramın fəxri qonağı, birincilərin dərsliklərinin müəlliflərindən biri, fizika-riyaziyyat elmləri namizədi Əlövsət Osmanlı birincilərin bilik gününü təbrik edərək, onlara həyatda böyük uğurlar arzuladı. Daha sonra valideynlərdən biri övladlarına göstərdikləri qayğıya görə bütün müəllimlərə valideynlər adından dərin təşəkkürünü bildirdi.

Bilirəm, qarşıda məni hələ çox "bilik bayram"ları gözləsə də, şagirdlərim kimi mən də bu ilk bayramı heç zaman unutmayacağam.

Fidan TƏBRİZİ,
I c sinif müəllimi





GÖRKƏMLİ TARİXÇİ ALİMLƏ GÖRÜŞ





May ayının 8-i Azərbaycan tarixinə Azərbaycanın ürəyi Şuşanın ermənilər tərəfindən işğalı ilə daxil oldu. Şuşamızın geri qaytarılması ümidi ilə hər il biz bu tarixi "Dünya" məktəbinin kollektivi ilə anır, şagirdlərimizi faktik materiallarla tanış edirik. Bu il isə bu hadisəni "Dünya" məktəbi özünəməxsus bir tərzdə qeyd etdi. Belə ki, bu yaxınlarda yenicə çapdan çıxmış "Март 1918 г. Баку. Азербайджанские погромы в документах" adlı kitabın tərtibçisi, tarix elmləri doktoru Solmaz xanım Rüstəmova –Tohidi "Dünya" məktəbinin qonağı idi. "Dünya" məktəbinin direktoru Nailəxanım İsayeva Solmaz xanımı uşaqlara təqdim etdi.

Əvvəlcə Solmaz xanımın elmi fəaliyyətini əks etdirən slayd, ermənilərin Azərbaycanda yerləşdirilməsi və onların azərbaycanlılara qarşı yönəlmiş soyqırım siyasətini əks etdirən sənədli film nümayiş etdirildi. Bundan sonra Solmaz xanımın maraqlı söhbəti uşaqların diqqətini yeni dərc edilmiş kitaba və sözsüz ki, ermənilərin məkrli niyyətinə yönəltdi. Solmaz xanım uşaqların bütün suallarını böyük həvəslə cavablandırdı.

Tədbir iştirakçıları Solmaz xanımın çıxışından çox razı qaldılar və xeyli maraqlı məlumatlar öyrəndilər.

Bu görüşün təşkilində və keçirilməsində fəal iştirakına görə "Dünya" məktəbinin tarix müəllimləri Ülviyyə Ağayevaya və Arif İbrahimova dərin təşəkkürümüzü bildiririk.

Mədinə Rzayeva,
"Dünya" məktəbinin müəllimi

MARAQ DÜNYASI

BİLİRSİNİZMİ?



* *Dünyada ilk mobil telefon "Motorolla" telefonudur. 1983-cü ildə Martin Kuper tərəfindən ixtira edilmişdir.*
* *Mikroskop 1590-cı ildə Hans Yensin tərəfindən ixtira olunub.*
* *Teleskop 1592-ci ildə Qalileo Qaliley tərəfindən ixtira olunmuşdur.*
* *Tundrada şibyənin 3 sm böyüməsi üçün 100 il vaxt sərf olunur.*
* *Fil xortumu ilə 6 m hündürlüyündəki budağı sındıra, 200 kq ağırlığında yükü qaldıra bilər.*
* *İnsan bədənində 200-dən artıq sümük var. Onların ən böyüyü baldır, ən kiçiyi isə qulaq sümüyüdür.*
* *İnsan bədənindəki damarlar sap kimi uc-uca calansa, uzunluğu yüz min km-ə yaxın olar. Bu uzunluqda ipi Yer kürəsinə təxminən 3 dəfə dolamaq olar.*
* *İnsan gözünü gündə on bir min dəfədən çox qırpır.*
* *Çəkdiyi 1 ədəd siqaret insanın ömrünü 15 dəqiqə qısaldır.*

Toplayanı:
Nərmin AXUNDOVA, *VI c*

"BİRLİK RAHATLIQ – AYRILIQ ƏZABDIR"

"Oxu" kitabındakı mövzuya uyğun olaraq dərs dediyim IV a sinfinə "Birlik rahatlıq – ayrılıq əzabdır" mövzusunda inşa yazmağı tapşırdım. Səhəri gün uşaqlar böyük həvəslə yazdıqları inşaları oxudular. Balacaların bu mövzudakı fikirləri məni çox sevindirdi. Sizinlə bölüşmək qərarına gəldim...

Məhəmməd: *Birliyin rahatlıq olduğunu hər kəs bilir. Məncə, birliyin növləri çoxdur: insanlar arasında birlik, siniflər arasında birlik, ölkələr arasında birlik... Ayrılıq deyəndə, mən müharibə haqda düşünürəm. Çünki müharibə olanda insanlar arasına ayrılıq düşür: uşaqlar dostlarından, əzizlərindən, ev - eşiklərindən, doğma torpaqlarından ayrı düşməyə məcbur olurlar. Məhəmməd peyğəmbər ﷺ demişdir: Birlik rahatlıq – ayrılıq əzabdır. Bütün insanlar çalışmalıdır ki, insanlar arasında ayrılıq düşməsin.*

Əziz: *Birlik olmasa, insanlar arasında hər şey çətinləşər. Ölkələr arasındakı əlaqələrdə də...Birliyi insanlar özləri yaratmalıdırlar, yoxsa bütün dünya darda qalar. Tənha insan həmişə darda, çətinlikdə qalır. Mən heç vaxt ayrı olmamışam. Həmişə qardaşlarımla birgə oluram. Mən heç vaxt heç kimə ayrılıq arzulamıram.*

Səidə: *Məncə, birlik məktəbdə daha çox lazımdır. Sevil adında bir qız var idi. Məktəbdə heç kim onunla dost olmurdu. Bir gün siniflərinə təzə qız gəldi və Sevilə yaxınlaşaraq onunla salamlaşdı. Digər sinif yoldaşları bundan çox pərt oldular və onların da Sevilə münasibəti dəyişdi. Və həmişə birlikdə oldular.*

Nüşabə: *"Birlik rahatlıq – ayrılıq əzabdır" sözünün mənasını mən belə başa düşürəm: yəni insanlar həmişə birlikdə olsalar, bir yerdə bir işi görsələr, rahat və xoşbəxt yaşayarlar. Həm də düşmənlərinə qalib gələrlər. Əgər insanlar çətin işləri ayrılıqda görsələr, bu onlar üçün əzablı olar. Buna III sinif "Oxu" kitabında olan "Yeddi nar çubuğu" nağılını misal göstərə bilərəm...*

Hüseyn: *Birlik qardaşlıq deməkdir. Ölkələr birbirlərinə dayaq dursa, heç vaxt müharibə olmaz. Məsələn, Türkiyə həmişə Azərbaycana kömək edir.*

Fərid: *Biz çalışmalıyıq ki, ailəmizdə, vətənimizdə birlik yaradaq. Ailədə birliyi heç vaxt pozmaq olmaz. Biz öz dövlətimizdə də birlik yaratmalıyıq. Hansı dövlətdə faciə baş verərsə, ona kömək etməliyik. Birliyimizi daim qorumalıyıq...*

Furqan: *Birlik sözünün mənası çox genişdir. Bunu açıqlamaq üçün insana günlərlə, aylarla zaman lazımdır. Birlik olan yerdə insan daha rahat olur. Yəni insanın çoxlu dostları olarkən onlarla öz dərdini, çətinliklərini bölüşür. Birlik olarkən insan çətinliklərinin öhdəsindən asanlıqla gəlir... Ayrılıq isə təklik deməkdir. Heç bir insan istəməz ki, tək qalsın. Çünki ayrılıq və təklik insana əzab verir. Bir dəfə mən yaxın dostumdan incidim və biz bir həftə əlaqə saxlamadıq. Bu bir həftədə mən özümü çox tənha hiss etdim. Sonra biz səhvlərimizi başa düşdük və barışdıq.*

Ilkin: *İnsanlar kimi xalqlar da bir-birilə yaxın olsalar, dünyada sülh, əmin-amanlıq olar. Bizim xalqımız bütün dövlətlərlə mehriban olmaq istəyir. Amma bədxah qonşularımız olan ermənilər buna imkan vermirlər. Qan qardaşlarımız olan türklər bizim mehriban və səmimi qonşularımızdır.*



Müslüm: *Tək insan da, tək dövlət də heç nə edə bilməz. İnsanlar kimi dövlətlər də birləşsələr yaxşı olar.*

Adil: *Biz birləşsək, bizə heç kəs qalib gələ bilməz. Birlik insanlara lazım olduğu kimi, dövlətlərə də vacibdir.*

Nəzrin: *İnsanlar bir-birilə dost olmalıdırlar. Uşaqlara deyərdim ki, heç vaxt dostlarınızdan ayrılmayın!*

Sədaqət: *Birlik müxtəlif olur: ailə birliyi, dost birliyi, dövlət birliyi və s. Məncə, ailə birliyi çox mehriban və xoşbəxt olmalıdır...*

Bax belə! IV sinif şagirdləri birlik məfhumunu başa düşərək, birgə olmağın yollarını axtarırlar. Onlara bu işdə uğurlar arzulayıram.

Mədinə RZAYEVA

ƏDƏBİYYAT LÜĞƏTİ

Gəlin, öyrənək!

URBANİZM – 20-ci əsr burjua ədəbiyyatındakı cərəyanların (konstruktivizm, futurizm) səciyyəvi xüsusiyyətlərindən olub, böyük kapitalist şəhərlərinin həyatını təsvir etməkdir. Varlı təbəqənin mənafeyini müdafiə etmək urbanizmin əsas prinsipidir.

USTADNAMƏ – Azərbaycan şifahi xalq ədəbiyyatında lirik şeir. Mənası "ustad sözü", "ustad öyüdü" deməkdir. Daha çox qoşma formasında olur.

UTOPİYA – yazıçı xəyalını əks etdirən əsər; belə əsərlərdə yazıçı hələ həyata keçməmiş, xəyali mövcud olanı həqiqi, real bir şey kimi təqdim edir. Utopik əsərlər müxtəlif janrlarda yaranır.

ÜLVİLİK – insanda heyranlıqla, fərəhlə bağlı xüsusi estetik hiss doğuran, diqqətəlayiq əhvalat və hadisələrin mahiyyətini cəm halında ifadə edən estetik kateqoriya.

ÜSLUB – bədii ədəbiyyatda üslub hər hansı yazıçının yaradıcılığına xas olub, əsərlərində təkrar edilən əsas ideya-bədii xüsusiyyətlərin məcmusu; yazıçının dünyagörüşünü və əsərlərinin məzmununu təyin edən əsas ideyalar; həmin yazıçının təsvir etdiyi süjetlər və xarakterlər dairəsi, onun üçün tipik olan bədii təsvir və ifadə vasitələri. "Üslub" sözü müxtəlif mənalarda işlənir : iş üslubu, şəxsi davranış üslubu, ədəbi dil üslubu, fərdi üslub və s.

VARSAĞI – şərq xalqlarının ədəbiyyatında, xüsusilə şifahi yaradıcılığında işlənən şeir formalarından biri. Qədim Azərbaycan qəbilə birləşmələrindən birinin adı ilə bağlıdır. Varsaq adlı musiqi aləti və el sənətkarı olduğu da söylənilir.

VARVARİZM – bədii əsərin yazıldığı dilə yad olub, başqa bir dildən götürülən əcnəbi söz; xarici dilə məxsus danışıq tərzi və ifadə.

VƏSFI-HAL – qədim xalq etiqadndakı falla əlaqədar şeir; heca vəznində, dörd misralı, sadə dildə olması və bəzi başqa xüsusiyyətləri ilə bayatıya çox oxşayır.

VƏZN – şeirdə vurğulu və vurğusuz hecaların sayı və növbələşməsi qaydası; şeirə ahəngdarlıq, gözəllik verən əsas cəhətlərdən biri. Azərbaycan şeirində, əsasən, üç vəzn vardır: əruz, heca, sərbəst.

VODEVİL – keçmişdə eybəcər şəxsləri lağa qoyan xalq satirik mahnılarının adı. Sonralar həcmcə bir o qədər böyük olmayan məzəli təsvir pyeslərinə, bir pərdəli komediyalara da vodevil deyilmişdir.

VULQARİZM – ümumi ədəbi dildə işlənməyən kobud, ədəbsiz sözlər, yaxud qəsdən formaca təhrif olunan söz və ifadələr.

VURĞU – səsi qüvvətləndirmək, yaxud yüksəltmək yolu ilə sözdə hecanı və ya cümlədə sözü nəzərə çatdırmaq.

VÜCUDNAMƏ – Azərbaycan lirik şeirinin formalarından biri. Vücudnamədə insanın anadan olandan dünyasını dəyişənədək keçdiyi yol haqqında ümumiləşdirici fikirlər ifadə olunur. Vücudnamənin konkret forması yoxdur. Çox vaxt mürəbbe, qoşma, gəraylı, müxəmməs formalarında olur.

VÜZUH – bədii əsərdəki üslub və ifadənin dərhal anlaşılması.

YAMB – yambika musiqi alətinin müşayiəti ilə ifa olunan zarafatyana şeir. Sonralar yamb satirik poeziya formalarından biri olmuşdur.

YANILTMAC – uşaq folkloru janrlarından biri. Deyilişi çətin, dil dolaşa-dolaşa deyilən zarafatyana ifadələrdən yaranır.

YETIM BEYT – yalnız bir beytdən ibarət olub, dillərdə dolaşan, çox vaxt müəllifi unudulmuş lirik şeir. Belə beytlərə "fərd" də deyilir.

YUMOR – həyatdakı gülünc, komik hadisələri, insanların zəif cəhətlərini və nöqsanlarını əks etdirən, oxucuda, tamaşaçı və dinləyicidə gülüş oyadan əsərlər. Ədəbiyyatda tənqidi gülüşün bir növü.

YUQ – Azərbaycanda faciə, matəm, yas mərasimləri ilə bağlı termin. "Yuq" sözü "ölü üçün yas saxlayıb ağlamaq" mənasındadır.

ZƏNCİRLƏMƏ – Azərbaycan xalq şeirindəki ifadə üsullarından biri. Əsasən, müxəmməs, müsəddəs və divaniyə aiddir. Bu üsulla yaranan şeirdə bəndin son sözü, ya son ifadəsi növbəti bəndin əvvəlində eynilə təkrar olunur ki, bununla zəncirləmə yaranır.

ZİRVƏ *(kulminasiya)* – bədii hadisələrin inkişafında ən gərğın an. **(SON)**

Hazırlayanı: **Bəhlul ABDULLA**

KİTABXANAMIZIN YENİ KİTABLARI



Best G. Environmental pollution studies. – Liverpool: Liverpool University Press, 1999. – ISBN 0-8532-3923-1

Swimming upstream: collaborative approaches to watershed management / edited by Paul A. Sabatier. – Cambridge, MA: MIT Press, 2005. – 327 p. – 0-2626-9319-4



Houghton J.T. Global warming: the complete briefing. – 3rd ed. – Cambridge, UK; New York: Cambridge University Press, 2004. – 351 p. – ISBN 0-5215-2874-7





Treweek Jo. Ecological impact assessment. – London; Malden, MA: Blackwell Science, 1999. – ISBN 351 p. – ISBN 0-6320-3738-5



Miura T. Shame in the blood: a novel / Tetsuo Miura, translated by Andrew Driver. – Emeryville, CA: Shoemaker & Hoard, 2007. – 216 p. – ISBN 1-5937-6171-6

Ercilasun A. Türk dili tarihi: başlangiçtan yirminci yüzyıla. – Ankara: Akçag, 2008. – 486 s. – ISBN 978-9753-38589-3



Ozdemir H. The Ottoman army, 1914-1918: disease and death on the battlefield. – Salt Lake City, UT: University of Utah Press, 2008. – 274 p. – ISBN 978-0-8748-0923-7



Êэндзи М. Звезда Козодая / М. Кэндзи; пер. с япон. Е. Рябовой. – СПб: Гиперион, 2009. – 376 с.



Hazırlayanı: Lyudmila Sotova

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org